AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

16 İYUL 2019-cu il ÇƏRŞƏNBƏ AXŞAMI № 152 (6479) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## R.H.Əliyevin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda memarlıq sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rasim Həsən oğlu Əliyev “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 iyul 2019-cu il.**

## Ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət

**İyulun 15-də Azərbaycan-Türkiyə- Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli iclasının iştirakçıları Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı önünə tər güllər düzülüb.

Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.

**AZƏRTAC**

*Birinci vitse-prezident Mehriban ƏLİYEVA:*

# Ümummilli lider Heydər Əliyev bütün ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət edib



**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət etmişdir. Müasir Azərbaycan tarixinin bütün səhifələrində, istər iqtisadiyyat, istər xarici siyasət, istər elm və mədəniyyətdə onun silinməz izlərini görürük.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “İnstagram” səhifəsində edilən paylaşımda yer alıb.

Paylaşımda qeyd edilir ki, Heydər Əliyev nailiyyətləri və qələbələri Azərbaycanın tarixində və Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq və gələcək nəsillər üçün mərdlik, müdriklik və vətənpərvərlik nümunəsi olacaqdır.

**AZƏRTAC**

# Azərbaycan-BMT əməkdaşlığı: tarix və müasirliyin vəhdətində

*“Newtimes.az” portalında Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun doktorantı Leyla Məmmədəliyevanın “Azərbaycan-BMT əməkdaşlığı: tarix və müasirliyin vəhdətində” sərlövhəli məqaləsi dərc edilib. Məqalədə regional və qlobal miqyaslı proseslər fonunda Azərbaycan-BMT münasibətlərinin inkişaf dinamikası təhlil edilir. Göstərilir ki, müstəqilliyin ilk illərində Azərbaycan ilə BMT arasında əlaqələr daha çox formal xarakter daşıyırdı. O dövrdə ölkəyə rəhbərlik edən siyasi qüvvələrin səriştəsizliyi və yarıtmaz fəaliyyəti nəticəsində bütün dünya üçün vacib olan bu yüksək tribundan istifadə, demək olar ki, yox dərəcəsində idi. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xilaskar missiyası ilə yenidən hakimiyyətə qayıdışından sonra vəziyyət tədricən dəyişməyə başladı. Ulu Öndərin müəyyən etdiyi əməkdaşlıq kursu böyük nailiyyətlər əldə etməyə imkan verib. Hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycan-BMT münasibətlərinə yeni töhfələr verirlər. Həmin bağlılıqda bu il Bakıda keçirilən iki tədbirin bu münasibətlərə gətirdiyi yeni çalarlar analiz edilir və bu kontekstdə Azərbaycan-BMT münasibətlərinin perspektivi ilə bağlı tezis irəli sürülür. AZƏRTAC məqaləni təqdim edir.*

*Dünyanın ən mötəbər və nüfuzlu beynəlxalq təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı (BMT) qlobal miqyasda ciddi rol oynayır. Müxtəlif sahələr üzrə problemlərin həll edilməsi, davamlı inkişaf məsələləri, dünya təhlükəsizliyi problemləri, elm, təhsil, mədəniyyət, iqtisadiyyat üzrə inkişafın özəllikləri bu təşkilat üçün müstəsna əhəmiyyət kəsb edir. Buna görədir ki, hər bir müstəqil dövlətin BMT ilə münasibətlərinə böyük önəm verilir. Azərbaycan-BMT münasibətləri 1993-cü ildən başlayaraq tamamilə yeni məzmunda inkişaf etməkdədir. XXI əsrin əvvəllərində dünya miqyasında müşahidə edilən mürəkkəb və sürətli geosiyasi dəyişikliklər BMT üzvlərinin bu təşkilatla münasibətlərinə də yeni çalarlar gətirib. O cümlədən Azərbaycan iqtisadiyyat, elm, təhsil, mədəniyyət, təhlükəsizlik, münaqişələrin həlli və sair məsələlərdə BMT ilə əlaqələrini yeni səviyyəyə yüksəldib. Aktual məsələlərlə bağlı təklif edilən proqramların həyata keçirilməsində daha aktiv mövqe tutub. Bütün bu məqamların fonunda Azərbaycan-BMT münasibətlərinin təkamülünün təhlili üzərində dayanmağa ehtiyac görürük.*

### Yolun başlanğıcı: Ulu Öndərin müəyyən etdiyi əməkdaşlıq kursunun uğurları

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi 1945-ci il iyunun 26-da ABŞ-ın San-Fransisko şəhərində keçirilən beynəlxalq konfransda təsdiq edilib. Konfransda 50 ölkədən nümayəndələr iştirak edib. Nizamnamə həmin ilin oktyabrında qüvvəyə minib. Bu tarixdən başlayaraq BMT beynəlxalq aləmdə ən çox adı hallanan təşkilatdır. Artıq insanlar hər hansı beynəlxalq problemin BMT çərçivəsində həll edilməsini ədalətli sayırlar. Yarandığı gündən indiyə qədər bu beynəlxalq təşkilat çoxlu sayda problemlərlə məşğul olub. Mövcudluğu müddətində BMT çətinliklər və ziddiyyətlərlə də üzləşib. Onun yeni müstəqil dövlətlərlə münasibətləri də asanlıqla formalaşmayıb. Hər bir müstəqil ölkənin bununla bağlı öz təcrübəsi vardır. Azərbaycan-BMT münasibətləri bu baxımdan maraqlı və zəngin təcrübəyə malikdir.




Müstəqilliyin ilk illərində Azərbaycanla BMT arasında əlaqələr daha çox formal xarakter daşıyırdı. O dövrdə ölkəyə rəhbərlik edən siyasi qüvvələrin səriştəsizliyi və yarıtmaz fəaliyyəti nəticəsində bütün dünya üçün vacib olan bu yüksək tribundan istifadə demək olar ki, yox dərəcəsində idi. Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xilaskar missiyası ilə yenidən hakimiyyətə qayıdışından sonra isə vəziyyət tədricən dəyişməyə başladı. BMT-nin Baş Məclisinin elə həmin ildə keçirilən 85-ci plenar iclasında “Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında” qətnamə qəbul edildi. Bu, Azərbaycan-BMT münasibətləri kontekstində mühüm addım idi, çünki bununla, faktiki olaraq, Azərbaycan üzləşdiyi erməni təcavüzünün yaratdığı problemləri dünya ictimaiyyətinə nüfuzlu beynəlxalq təşkilatın tribunasından çatdırmaq imkanı əldə etmiş oldu.

Ulu Öndərin təşkilatın Baş Məclisinin 49-cu sessiyasında və BMT-nin 50 illiyi ilə əlaqədar xüsusi toplantıda söylədiyi proqram xarakterli nitqləri isə BMT-Azərbaycan əlaqələrinin strateji yol xəritəsi idi. Onun başlıca prinsipini Azərbaycanın müstəqil dövlət quruculuğu konsepsiyasının əsas məqamları təşkil edirdi. Onların sırasında müstəqil xarici siyasət kursu ayrıca yer tutur. Məhz bu kimi prinsipial məqamları Ulu öndər BMT tribunasından bütün dünyaya bəyan etdi. Bununla tarixdə ilk dəfə olaraq, universal xarakterli beynəlxalq təşkilatın xitabət kürsüsündən Azərbaycanda müstəqil, demokratik və sivil bir dövlət quruculuğunun başlıca prinsipləri konseptual və sistemli şəkildə ifadə edildi.

Bununla yanaşı, həmin məqamlar BMT-nin özünün fəaliyyətinin xarakteristikası ilə əlaqədə təqdim edildi. Konkret olaraq, Heydər Əliyev qlobal geosiyasətdə müşahidə edilən prosesləri analiz edərək, həm böyük dövlətlərin dünya qarşısında məsuliyyətinin artdığını, həm də BMT-nin əsas beynəlxalq təşkilat kimi fəaliyyətinin daha da səmərələşdirilməli olduğunu vurğuladı.

Ulu öndər yuxarıda vurğulanan kontekstdə BMT Baş Məclisinin 49-cu sessiyasında ifadə etmişdi: “Gələn il özünün 50 illiyini qeyd edəcək Birləşmiş Millətlər Təşkilatı, bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında, şübhəsiz ki, aparıcı rol oynayır. Lakin Təhlükəsizlik Şurası qarşısında hələ çətin sınaqlar durur: yeni şəraitdə öz səmərəli fəaliyyətini Dünya Birliyinə sübut etmək. Bu gün Təhlükəsizlik Şurası öz qətnamələrinin təminatlı şəkildə yerinə yetirilməsinə nail olmaqla həmişəkindən daha çox əzmkarlıq göstərməlidir. Ümid edirik ki, Şuranın tərkibinin genişləndirilməsi onun möhkəmləndirilməsinə kömək edəcəkdir”. Konkret olaraq, Ulu öndər Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsi üçün lazımi əzmkarlığın göstərilmədiyini ifadə edib. Bunun fonunda TŞ-də islahatların aparılması, o cümlədən onun tərkibinin genişləndirilməsi məsələsinin aktuallaşdığı vurğulanıb. Bu, 1994-cü ildə, qlobal miqyasda kifayət qədər mürəkkəb bir vəziyyətin yarandığı şəraitdə çox vaxtında verilmiş bir təklif idi. Əgər BMT onu reallaşdıra bilsəydi, indi müşahidə edilən bir çox ziddiyyətli məqamlar dünya siyasətini narahat etməzdi.

Ulu Öndər fikirlərini inkişaf etdirərək, başqa problemlərə də toxunmuşdu. Heydər Əliyev nitqində vurğulayıb: “Biz Baş Məclisin roluna böyük əhəmiyyət veririk. Bu rolu hər şeydən əvvəl onda görürük ki, qarşılıqlı güzəştlərə və mənafelərin tarazlığına əsaslanan qərarlar qəbul edilərkən dövlətlərin ən sıx qarşılıqlı fəaliyyəti təmin edilsin. İndiki şəraitdə BMT Baş katibinin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, habelə beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində Baş katib ilə birlikdə məsuliyyət daşıyan üzv dövlətlərin ona göstərməli olduqları köməyin əhəmiyyəti də artır”.

### Beynəlxalq təhlükəsizlik və terrorla mübarizə: Azərbaycanın fəal mövqeyi

Beləliklə, Heydər Əliyev, faktiki olaraq, Baş Məclisin 49-cu sessiyasında BMT-də aparılması vacib olan sistemli islahatlar məsələsini qaldırmış və həmin məsələni müstəqil Azərbaycanın bu beynəlxalq təşkilatla sıx əməkdaşlığı kontekstində ifadə etmişdi. Ulu Öndər nitqində ifadə edib ki, Azərbaycan BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir, Bakı həmişə bu beynəlxalq təşkilatın yüksək prinsiplərini müdafiə edəcək və “təşkilatın nüfuzunun səmərəsinin artırılmasına nail olmağa” çalışacaq. Deməli, əslində, 49-cu sessiyada Heydər Əliyev dövlət quruculuğunun yuxarıda vurğulanan mühüm aspektləri prizmasından Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə daha çox diqqət yetirilməsi tələbini və zərurətini BMT üzvlərinə bir daha xatırladıb.

Bu, Azərbaycan-BMT münasibətlərinin perspektivi baxımından dəqiq düşünülmüş gözəl bir başlanğıc idi. BMT Heydər Əliyevin təqdimatında müstəqil siyasət yeridən və demokratik dövlətçilik modelinə üstünlük verən bir üzvü ilə qarşılıqlı münasibətləri səmərəli şəkildə inkişaf etdirməyə kökləndi. Bu istiqamət bir il sonra, Heydər Əliyevin BMT-nin 50 illiyinə həsr edilmiş xüsusi təntənəli tədbirdəki çıxışında bir daha xatırladıldı.

Nitqində BMT-nin dünyada xüsusi rol oynadığına diqqət çəkən Ulu Öndər onu “bəşəriyyətin tarixində ən nüfuzlu və ən səlahiyyətli beynəlxalq təşkilat” kimi qiymətləndirib. Azadlıq, demokratiya və insan haqları ideyalarının geniş yayılması müsbət haldır. Lakin Heydər Əliyev nitqində onu da vurğulayır ki, “...dünya hələ də tam təhlükəsiz, mükəmməl və ideal vəziyyətdə deyildir. Elə problemlər var ki, bunlar köklü şəkildə həll olunmalıdır. Dövlətlər arasındakı münasibətlərdə beynəlxalq hüquq normalarının pozulması, beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, aclıq və səfalətin aradan qaldırılması, ekoloji fəlakətlərin qarşısının alınması məhz belə problemlərdir. Dünyanın bir çox regionlarında qanlı müharibələrə, milyonlarla insanların saysız-hesabsız əzab-əziyyətlərinə səbəb olan təcavüzkar millətçilik və separatizm halları sülh üçün böyük təhlükədir.

Bütün bunlar onu göstərir ki, Ulu Öndər qlobal geosiyasi münasibətlərdə dövlətlərin yeni qaydalara keçməli olduğunu qeyd edib. Onun fikirlərinə görə, qarşılıqlı etimad və dialoq imkanları artırılmalı və BMT-nin bu prosesdə özəl rolu olmalıdır. Müasir mərhələdə beynəlxalq hüquq normalarının pozulmasına qətiyyən yol verilməməlidir. Çünki mütəxəssislərin də vurğuladıqları kimi, beynəlxalq hüquq normalarının pozulması sülh və təhlükəsizlik üçün ciddi risklər meydana gətirir.

Beləliklə, Azərbaycan-BMT münasibətləri ulu öndər Heydər Əliyev tərəfindən dəqiq işlənmiş prinsiplər əsasında qurulub və daim inkişaf edir. Bir tərəfdən, Azərbaycanın müstəqil dövlət kimi inkişafı məsələsi qoyulur, digər tərəfdən isə BMT-nin nüfuzlu beynəlxalq təşkilat olaraq real və səmərəli fəaliyyətinin təmini problemi qaldırılır. Bu iki məqamın fonunda BMT-Azərbaycan münasibətlərinin dinamikasını izləmək faydalı olardı.

Mütəxəssislər Azərbaycan-BMT münasibətlərini xarakterizə edərkən vurğulayırlar ki, ölkə 1995-ci ildən başlayaraq BMT-nin çox sayda komissiya və şurasında çox aktiv fəaliyyət göstərir. Konkret olaraq, Azərbaycan UNESKO-da, UNİCEF-də, ECOSOC-da, qurumun Qadınların Vəziyyəti üzrə Komissiyasında, İnsan Hüquqları Komissiyasında və digərlərində proqramların reallaşdırılmasında fəal iştirak edir. Bir çox hallarda Azərbaycan BMT üçün aktual olan təkliflərlə çıxış edir, onların həyata keçirilməsi üçün ciddi səylər göstərir. Bu bağlılıqda Azərbaycanın BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı ilə sıx əlaqələr qurması olduqca əhəmiyyətlidir. Müasir cəmiyyətlər üçün elm və təhsilin strateji əhəmiyyət daşıdığını sübut etməyə ehtiyac yoxdur.

### Əlaqələrin genişlənməsi: yeni təşəbbüslər və Azərbaycan

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkənin BMT ilə əlaqələrinə çox böyük töhfələr verdiyini xüsusi vurğulamaq lazımdır. Bu istiqamətdəki fəaliyyəti ilə ölkənin birinci xanımı Azərbaycan mədəniyyətinin bütün dünyada təbliğində səylərini əsirgəmir, eyni zamanda, dünya mədəniyyətinin Azərbaycanda təbliği üçün əvəzsiz xidmətlər göstərir. Bütün bunlara görədir ki, Mehriban xanım Əliyeva UNESKO-nun xoşməramlı səfiri seçilib.

Şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyev BMT ilə münasibətlərin inkişaf etdirilməsində həlledici rol oynayır. Ulu Öndərin siyasi kursunu tam dolğunluğu ilə inkişaf etdirən dövlət başçısı Azərbaycan-BMT münasibətlərinin yüksək dinamikaya malik olması üçün düşünülmüş və səmərəli proqramların reallaşdırılmasına nail olub.

**(davamı 4-cü səhifədə)**

# XX əsrin 70-ci illəri Azərbaycan sürətli və keyfiyyətli

*Azərbaycan iqtisadiyyatı XX əsrdə bir-birilə çox böyük, müəyyən mənada antoqonist ziddiyyət təşkil edən 4 iqtisadi sistem şəraitində inkişaf etmişdir:*

- ***Azərbaycan iqtisadiyyatı çar Rusiyasının iqtisadiyyatının tərkib hissəsi kimi - 1900-1917-ci illər;***
- ***Müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatının 1918-1920-ci illər (Sovet hakimiyyətinin qurulmasına qədər olan) dövrü;***
- ***SSRİ tərkibində Azərbaycan Sovet Respublikasının 1920-1991-ci illərdə iqtisadiyyatı;***
- ***Müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatı.***

*Təhlil göstərir ki, Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri bir-birindən prinsipial cəhətlərə görə fərqlənir. Məqalədə XX əsrin ikinci yarısında, xüsusilə 60-90-cı illərdə iqtisadi inkişaf məsələləri daha ətraflı təhlil edilir. Müəllif belə bir qəti fikirdədir ki, 70-ci illər iqtisadi inkişaf sürəti, sənayedə struktur dəyişiklikləri, iqtisadiyyata əsaslı vəsait qoyuluşunun həcminin artması, əhalinin yaşayış səviyyəsinin yüksəlməsi baxımından XX əsrin ən məhsuldar, dinamik və keyfiyyətli inkişaf illəri olmuşdur. Bütün bu nailiyyətlər 14 iyul 1969-cu ildə - 50 il bundan əvvəl Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə əldə edildi.*

*Bu dövrdə Azərbaycan nəinki özünü təmin edir, hətta hər il külli miqdarda vəsaiti İttifaq Fonduna ayırırdı. Daha dəqiq desək, İttifaq hökuməti Azərbaycanın milli sərvətinin xeyli hissəsini öz sərəncamına keçirirdi. Təsadüfi deyil ki, keçmiş respublikalar içərisində, demək olar ki, ilk dəfə Azərbaycanda iqtisadi müstəqillik konsepsiyasının hazırlanması zərurəti meydana çıxmışdı.*

*XX əsrin sonuncu onilliyinin əvvəllərində ötən əsrin 70-ci illərində gərgin əmək hesabına qazanılmış mövqelər itmiş, məhsuldarlıq dəfələrlə aşağı düşmüş, uzun illər boyu keçmiş İttifaqda özünün müsbət saldosu ilə xarakterizə edilmiş ixrac-idxal balansında ciddi kəsir yaranmış, bir neçə strateji məhsulları çıxmaq şərti ilə iqtisadiyyatımız üçün hələ bir müddət zəruri olan xarici bazarı itirmək şəraiti yaranmışdı.*

***Ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsi ilə milli inkişafın və intibahın əsası qoyuldu.***

*İqtisadiyyat inkişaf etməyə başladı, respublikanın sənaye potensialı yüksəldi, kənd təsərrüfatında böyük dönüş başladı. Bakı şəhəri müasirləşdi, yeniləşdi. Təkcə sənaye və kənd təsərrüfatı deyil, elm və təhsil, mədəniyyət, səhiyyə də ciddi şəkildə inkişaf etdi. Çoxlu məktəblər, ali təhsil ocaqları yaradıldı. Bütün bunların hamısı ulu öndər Heydər Əliyevin Azərbaycan qarşısında etdiyi möhtəşəm xidmətlərdir ki, bunların sayəsində respublikamız böyük bir inkişaf mərhələsi keçdi.*

*Bu gün Azərbaycan Heydər Əliyev siyasətinin uğurlarını yaşayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bu gün əldə etdiyimiz nailiyyətlər Heydər Əliyev siyasətinin nəticəsidir. Bütövlükdə, Azərbaycanın uğurlu inkişafının təməlində Heydər Əliyev siyasəti dayanır. Bu elə bir siyasətdir ki, onun əsasında Azərbaycan bundan sonra da uzun illər öz yüksəlişini təmin edəcək. Azərbaycan daha da qüdrətlənəcək, möhkəmlənəcək, xalqımızın milli həmrəyliyi daha da güclənəcək, ölkəmizin dünya birliyində mövqeləri artacaq.*

*Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 50 illiyi ərəfəsində Azərbaycan iqtisadiyyatı ilə əlaqədar ciddi elmi araşdırmalar aparmış və kitablar nəşr etdirmiş akademik Ziyad SƏMƏDZADƏNİN yazısını təqdim edirik.*



## MİLLİ GƏLİRİN SÜRƏTLƏ ARTIRILMASI VACİB BİR HƏDƏF KİMİ MÜƏYYƏN EDİLDİ

Heydər Əliyev bilirdi ki, respublikanın iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi, milli gəlirin artım sürəti ilə əhali artımının sürəti arasında optimal nisbətin təmin edilməsi, respublikanın inkişafı ilə bağlı əsas sosial-iqtisadi göstəricilərin dinamikasında yaranmış uyğunsuzluqların aradan qaldırılması, Azərbaycanın Sovetlər İttifaqında nüfuzunun qaldırılması çox çətin, hətta cəsarətlə demək olar ki, fundamental bir problemdir. Amma o, tam əmin idi ki, xalq təsərrüfatında yaranmış geriliyi aradan qaldırmaq üçün düşünülmüş strategiya hazırlamaq tələb olunur. Azərbaycanın inkişafı ilə bağlı elə bir strateji xətt seçilməli idi ki, onun həyata keçirilməsi respublikanın iqtisadi inkişaf sürətinin artmasını, yaxın və uzaq perspektivdə bütövlükdə SSRİ üzrə müvafiq göstəricilərdən yüksək olmasını təmin etsin.

Heydər Əliyev vaxt amilini nəzərə almaqla respublikada sənaye, kənd təsərrüfatı istehsalının, ümumiyyətlə, milli gəlirin sürətlə artırılmasını üstün vəzifə kimi müəyyənləşdirdi. Bu strategiyanın reallaşması ilk növbədə, bütövlükdə İttifaq ilə respublika arasında əsas iqtisadi inkişaf göstəricilərinin səviyyələrində yaranmış böyük fərqlərin dərinləşməsinin, respublikanın malik olduğu potensialdan səmərəli istifadə edilməməsinin qarşısını almalı idi. Bütün bunların həlli üçün isə İttifaq rəhbərliyi, o cümlədən SSRİ Dövlət Plan Komitəsi, İttifaq nazirlikləri ilə əməkdaşlığın təkmilləşdirilməsi çox vacib idi.

Azərbaycan SSR isə bu göstəricinin artım sürətinə görə müttəfiq respublikalar arasında 14-15-ci yeri tuturdu. İttifaqda 10 il ərzində milli gəlirin istehsalı 99, respublikamızda isə 66 faiz artmışdır.

On ildən artıq bir müddət ərzində respublikamızın iqtisadiyyatı ləng artmış, İttifaq üzrə orta göstəricidən çox geri qalan bir sürətlə inkişaf etmişdir. Sənaye və kənd təsərrüfatı istehsalının bir sıra əsas, həlledici göstəriciləri üzrə biz ölkədə axırıncı yerlərdən birini tuturuq. Məhz buna görə də beşillik tapşırıqların xeyli hissəsi yerinə yetirilməmiş, sənaye istehsalının ümumi artımı nəzərdə tutulan 1,6 dəfə əvəzinə 1,37 dəfə olmuşdur. Orta illik artım sürəti əvvəlki beş ildəkindən xeyli aşağıdır.

1966-1970-ci illər ərzində ümumi kənd təsərrüfatı məhsulunun artımı nəzərdə tutulan 29 faiz əvəzinə 23 faiz olmuşdur. Beşillik ərzində əsaslı tikinti üzrə 52 milyon rubl vəsaitdən istifadə edilməmişdir.

Ötən əsrin 60-cı illərində respublikamızda xalq təsərrüfatının zəif inkişaf etməsi, nəzərdə tutulan plan tapşırıqlarının yerinə yetirilməsində buraxılan ciddi nöqsanlar milli gəlirin artım sürətini zəiflətmiş və onun adambaşına düşən miqdarının artmasını məhdudlaşdırmışdır. Bu dövrdə respublikamız adambaşına düşən milli gəlirin miqdarına görə müttəfiq respublikalar arasında axırıncı yeri tuturdu, həm də bu fərq çox böyük rəqəmlərlə ifadə edilirdi. Məsələn, 1960-1970-ci illərdə ölkə üzrə bu göstərici 76, Gürcüstan SSR-də 74, Ermənistan SSR-də 58 faiz artdığı halda, Azərbaycan SSR-də 25, 1960-65-ci illərdə isə cəmi 6 faiz artmışdır. Respublika üzrə adambaşına düşən milli gəlir istehsalının VII və VIII beşilliklərdə başqa respublikalara nisbətən zəif artımı müttəfiq respublikalarla onun arasında bu göstəriciyə görə mövcud olan fərqi daha da artırmışdır. Ona görə də bir daha qeyd etmək istəyirik ki, Azərbaycan rəhbərliyi milli gəlirin daha sürətlə artırılmasını respublikanın iqtisadi-sosial inkişaf səviyyəsini Ümumittifaq səviyyəsinə çatdırmaq üçün vacib amil sayırdı.

1970-ci ilin iyun ayında Sov. İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycan respublika rəhbəri təsərrüfatının inkişafı barədə xüsusi qərar qəbul etdi. Bu, respublikamızın tarixində İttifaq rəhbərliyinin Azərbaycanın iqtisadiyyatı barədə qəbul etdiyi ən mühüm sənədlərdən hesab edilir. Heydər Əliyev bu qərar layihəsini hazırlayarkən dəfələrlə ölkə rəhbərliyi, SSRİ Dövlət Plan Komitəsi, SSRİ Maliyyə Nazirliyi, digər mühüm nazirlik və komitələrin, baş idarələrin rəhbərləri ilə məsləhətləşmələr aparmışdı.

Bu məqsədlə beşillik planların tərtibi prosesində əlavə imkanlar aşkar edilməli, respublikada milli gəlir istehsalını artırmaq üçün İttifaq hökuməti qarşısında ayrı-ayrı sahələrin daha sürətli inkişafına dair məsələlər qaldırılmalı, xalq təsərrüfatının sahə, ərazi proporsiyalarının təkmilləşdirilməsi, əsas istehsal fondlarından istifadənin yaxşılaşdırılması, sürətlə artan əmək ehtiyatlarının səmərəli məşğulluğunun təmin edilməsi məsələləri ön plana çəkilməliydi.

Ən vacib məsələlərdən biri xalq təsərrüfatında yığılıb qalmış ciddi problemlərin aradan qaldırılması üçün plan intizamının möhkəmləndirilməsi, planların hazırlanmasında bütün imkanlardan səmərəli istifadə edilməsi idi. Ona görə də Heydər Əliyev respublika rəhbəri seçildiyi gündən Azərbaycan iqtisadiyyatında yaranmış vəziyyətlə ciddi maraqlanır, nazirləri, komitə sədrlərini dinləyir, zavod və fabriklərdə, kolxoz və sovxozlarda olur, mütəxəssislərlə görüşür, müşavirələr keçirirdi.

1969-cu il dekabrın 24-də respublikanın xalq təsərrüfatında yaranmış ciddi gerilik 1969-cu ilin avqustunda Azərbaycan KP MK-nın plenumunda yüksək prinsipiallıqla müzakirə olunmuş və etiraf edilmişdir. Sov.İKP Mərkəzi Komitəsinin köməyi ilə Azərbaycan KP MK iqtisadiyyatın vəziyyətini təhlil etmiş, ona düzgün siyasi qiymət vermiş və yaranmış vəziyyətin dəyişdirilməsinə yönəldilən əsaslı tədbirlər müəyyən etmişdir. Bu baxımdan 1970-ci ilin iyulunda Sov.İKP Mərkəzi Komitəsinin və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" və "Azərbaycan SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" qərarları xüsusi əhəmiyyət kəsb etmişdir.

Qərarla nəzərdə tutulurdu ki, yeni beşillikdə Azərbaycanda 100-dən artıq və ya keçən beşillikdə olduğundan təqribən iki dəfə çox yeni müəssisə, habelə mövcud müəssisələrdə 60 yeni istehsalat sahəsini istifadəyə vermək planlaşdırılır. Respublikada maşınqayırmanın müasir sahələri yaradılacaq, neftayırma sənayesi, dəmiryol nəqliyyatı yenidən qurulacaq, kimya, yeyinti məhsulları sənayesinin və bir sıra başqa sənaye sahələrinin sürətli inkişafı təmin ediləcəkdir.

Kənd təsərrüfatına əsaslı vəsait qoyuluşu ötən beşillikdəki 661 milyon rubl əvəzinə 1,4 milyard rubl olacaqdır. Artıq irriqasiya tikintisinə və torpaqların meliorasiya vəziyyətinin yaxşılaşdırılması işlərinə çoxlu vəsait ayrılmışdır.

Heydər Əliyev respublika rəhbəri seçildiyi andan nə qədər riskli olsa da, İttifaq nazirlikləri ilə münasibətlərdə respublikanın maraqlarının nəzərə alınmasını xüsusi olaraq dilə gətirirdi. O deyirdi:

"**İttifaq nazirlərinə qarşı sərt mövqe** tutmaq çox mühümdür. Ona görə ki bunlar təkcə onların müəssisəsi deyil, Azərbaycan Respublikasının ərazisində yerləşən müəssisələrdir. Hər bir müəssisənin sənaye istehsalının həcmi dövlət planına daxildir ki, bu da Ali Sovetin sessiyasında təsdiq edilmişdir. Və burada istehsaldan 10 milyon çıxarılırsa, buna cavabdeh kimdir? Başqa müəssisələrin hesabına siz onu örtə bilməyəcəksiniz. Ona görə də Nazirlər Soveti bu məsələni tənzimləməlidir. Sözsüz ki, əsas Dövlət Plan Komitəsinin qəbul etdiyidir. Bununla əlaqədar bir daha İttifaq tabeli təşkilat və müəssisələrə Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin ciddi nəzarətinin yüksəldilməsi barədə demək istəyirəm".

Məncə, əlavə şərhə ehtiyac yoxdur. Təkcə onu qeyd etmək istərdim ki, Heydər Əliyev bütün fəaliyyəti dövründə sosial-iqtisadi inkişafla bağlı edəcəyi hər bir çıxışa, məruzəyə, hər bir müzakirəyə ciddi tələbkarlıqla, yüksək aşkarlıqla, məsuliyyətlə yanaşırdı. Ona görə də Heydər Əliyevin çıxışları, məruzələri hamının diqqətini cəlb edirdi, ictimai həyatda mühüm hadisəyə çevrilirdi, səfərbəredici rol oynayırdı.

Respublika zəhmətkeşlərinin toplantısında Heydər Əliyev çıxış edərək dedi ki, bu gün burada 1974-cü il ərzində xalq təsərrüfatı planlarının yerinə yetirilməsi vəziyyətinə nəzər salmaq, 1975-ci il və ümumilikdə beşillik üçün götürdüyümüz öhdəlikləri müzakirə etmək məqsədilə yığışmışıq: "Sevindirici haldır ki, Azərbaycan SSR 1974-cü ildə planı vaxtından əvvəl yerinə yetirdiyinə görə Sov.İKP MK və SSRİ Nazirlər Soveti onu Qırmızı Bayraqla təltif etmişdir. Azərbaycan zəhmətkeşlərinin əməyi SSRİ rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan müttəfiq respublikalar arasında sənaye, tikinti, nəqliyyat və kənd təsərrüfatı üzrə əmək yarışının qalibidir. Qırmızı Bayraq fəhlə, kolxozçu, ziyalı, partiya, sovet, təsərrüfat, komsomol işçilərinin əməyinə verilən yüksək qiymətin nəticəsidir".

**Həmin toplantıda iştirak edən Sov.İKP MK-nın üzvü, SSRİ Nazirlər Sovetinin sədri Nikolay Aleksandroviç Tixonov isə çıxışında bildirdi ki, Sov.İKP MK və SSRİ Nazirlər Soveti 1974-cü il üçün doqquz respublika arasında Ümumittifaq sosializm yarışının nəticələrini nəzərdən keçirmiş və Azərbaycan SSR-ni qalib seçmişdir: "İcazə verin, MK və Sovet hökuməti adından Sizi və Sizin şəxsinizdə bütün sənaye, tikinti, nəqliyyat, elm, mədəniyyət və kənd təsərrüfatı işçilərini səmimi qəlbdən təbrik edim, onlara cansağlığı, xoşbəxtlik və Sov.İKP MK-nın tapşırıqlarını gələcəkdə də müvəffəqiyyətlə yerinə yetirmələrini arzulayım. Yoldaşlar, mən bilirəm ki, qələbə sizə asan başa gəlməyib. Bu qələbə fabrik, zavod və xalq təsərrüfatının digər sahələrinin işçilərinin səyi nəticəsində əldə edilmişdir. Cari beşillik ərzində Azərbaycanın xalq təsərrüfatı ilbəil artan sürətlə inkişaf edir. Bu, hər şeydən əvvəl, Azərbaycan KP MK-nın və xüsusən Heydər Əliyev yoldaşın yorulmaz əməyinin nəticəsidir".**

Azərbaycan iqtisadiyyatının uğurlu inkişafını təmin edən ən mühüm amillərdən biri də o idi ki, hər il üçün xalq təsərrüfatının inkişaf planları respublika başçısı tərəfindən diqqətlə araşdırılırdı. Hər bir sahə, iri müəssisə onun diqqət mərkəzində idi. Müzakirələr zamanı o, inkişaf, səmərəlilik göstəriciləri ilə maraqlanırdı. Planların tərtibi (hazırlanması) prosesində fəal iştirak edən Heydər Əliyev Moskvada SSRİ rəhbərləri, İttifaq nazirlikləri ilə görüşür, respublikanın daha sürətli inkişafı üçün yeni müəssisələrin tikilməsi, istehsal sahələrinin yaradılması ilə bağlı məsələlərin həllinə nail olurdu. Bütün bunlar barədə o, Azərbaycan KP MK-nın Bürosunu məlumatlandırır, respublikanın müvafiq strukturlarına tapşırıqlar verirdi. Bütün bunlar isə öz müsbət nəticəsini verməyə bilməzdi.

Azərbaycan xalqı müharibədən sonrakı dövrdə, ilk dəfə olaraq, xalq təsərrüfatının inkişafına dair doqquzuncu beşillik planı bütün göstəricilər üzrə vaxtından 3 ay 20 gün tez yerinə yetirdi. Sənaye istehsalının həcmi planda nəzərdə tutulmuş 43-46 faiz əvəzinə 50 faiz artdı. Respublikada elektron, radiotexnika, hesablayıcı texnika və digər mütərəqqi sənaye sahələri yaradıldı. 1975-ci ildə sənayenin buraxdığı 103 növ məhsul "Keyfiyyət nişanı" aldı. Ümumiyyətlə, beşilliyin sonunda 209 növ məmulat "Keyfiyyət nişanı" ilə buraxıldı. Beş il ərzində dövlətə 1,2 milyon ton taxıl, 2,2 milyon ton pambıq, 2,2 milyon ton üzüm, 2 milyon ton tərəvəz, 11,1 milyon ton süd, 437 min ton ət satıldı. Fəhlə və qulluqçuların real əməkhaqqı xeyli artdı. Beş il ərzində 6,9 milyon kvadratmetr mənzil tikildi, 900 minə qədər adamın mənzil şəraiti yaxşılaşdırıldı. Azərbaycan SSR beş il dalbadal Ümumittifaq sosializm yarışının qalibi oldu. 16 nəfər qabaqcıl istehsalat, elm və mədəniyyət xadimi Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. 12.500 nəfər orden və medallarla təltif edildi.

Doqquzuncu beşilliyin yekunları barədə Azərbaycan KP-nin XXIX qurultayında MK-nın hesabat məruzəsi ilə çıxış edən Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev demişdir:

"Bu gün Azərbaycan KP Mərkəzi Komitəsi XXIX qurultaya razılıq hissi ilə məlumat verir ki, fəhlə sinfinin, kolxozçu kəndlilərin, ziyalıların əmək fədakarlığı, partiya təşkilatlarının böyük təşkilatçılıq və siyasi işi sayəsində əsas ictimai-iqtisadi vəzifələr və XXIV qurultayın Direktivlərində respublika qarşısında qoyulan konkret tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilmişdir. Doqquzuncu beşillik Azərbaycan iqtisadiyyatının inkişafında dönüş mərhələsi olmuşdur. Biz iqtisadiyyatın illər boyu davam edən geriliyinə nəinki son qoymuş, həm də xalq təsərrüfatını respublikanın tarixində misli görünməmiş yüksək sürətlə inkişaf etdirməyə nail olmuşuq".

1971-1975-ci illərdə istehsal olunan milli gəlirin orta illik artım sürəti 6,8% təşkil etdi. **Beşillik dövrdə təkcə sənayedə yaradılan milli gəlir 1969-cu ildə respublikanın bütün maddi istehsalında yaradılmış milli gəlirdən çox idi. Milli gəlirin artım sürəti üzrə beşillik tapşırıqlar dörd ildə yerinə yetirilmişdir.** Əgər 1960-1970-ci illərdə respublikamızda milli gəlirin artım sürəti (66 faiz) İttifaq üzrə müvafiq göstəricidən (99 faiz) 33 faiz bənd geri qalırdısa, IX beşillikdə respublikada milli gəlirin artımı (39 faiz) İttifaq üzrə artım sürətini (32 faiz) ötmüşdür. Bütün bu nailiyyətlər sonrakı illərdə daha sürətli inkişaf üçün güclü əsas yaratdı.

Lakin Heydər Əliyev Azərbaycanın bu inkişaf dinamikasının daha güclü olmasını, iqtisadiyyatda müsbət meyillərin daha da güclənməsini, iqtisadi artım imkanlarından daha səmərəli istifadə olunmasını arzulayırdı. O, belə bir inkişafın zəruriliyini əsaslandıraraq diqqəti bu məqamlara cəlb edirdi:

**"İqtisadiyyatın uzun sürən geriliyinin ümumən aradan qaldırıldığı və respublikanın yüksək sürətlə inkişaf etdiyi şəraitdə də bəzi istiqamətlərdə biz respublika səviyyəsi ilə orta İttifaq səviyyəsi arasında fərqi aradan qaldıra bilməmişik, yəni respublika göstəricilərinin orta İttifaq göstəricilərindən geriliyi davam edir.**

**Bununla əlaqədar olaraq, qarşıdakı beşillikdə milli gəlirin və onun adambaşına bölgüsünün artım sürəti böyük əhəmiyyət kəsb edir. Xatırlatmaq istəyirəm ki, 1961-ci ildən 1970-ci ilədək 10 il ərzində respublikada adambaşına milli gəlirin artımı cəmi 130 manat, yəni bütün ölkədəkindən təqribən üç dəfə az olmuşdur. Adambaşına milli gəlir 1970-ci ildə 737 manat, yəni orta İttifaq səviyyəsindən 457 manat az olmuşdur. Yetmişinci illərdə, yəni 1970-ci ildən başlayaraq respublika iqtisadiyyatının inkişafının ən mühüm yekunu bundan ibarətdir ki, biz milli gəlirin artım sürətini yüksəldə bilmişik. 1971-1978-ci illərdə bu göstərici il ərzində orta hesabla 7,1 faiz və ya ölkədəki orta göstəricidən 1,6 faiz bənd yüksək olmuşdur. Milli gəlirin mütləq artımından danışsaq, onuncu beşilliyin dörd ili ərzində respublikamızda bu artım planda nəzərdə tutulan 22 faiz əvəzinə 32,5 faiz çoxalmışdır.**

Biz milli gəlirin artımını sürətləndirməklə, ictimai əməyin səmərəliliyini yüksəltməklə adambaşına milli gəlirin orta İttifaq səviyyəsindən geriliyini azaltmışıq".

Milli gəlirin İttifaqa nisbətən sürətli artımı orta və İttifaq səviyyəsindən geriliyi xeyli azaltmaq üçün real əsas yaratdı. 60-cı illərin sonlarında respublikada adambaşına düşən milli gəlirin miqdarı İttifaq səviyyəsinin 61 faizini təşkil edirdi. 1975-ci ildə bu rəqəm 65, 1979-cu ildə isə 79 faiz olmuşdur. 1980-ci ildə respublikada adambaşına 1380 manatlıqdan çox milli gəlir istehsal olunmuşdur ki, bu da İttifaq üzrə müvafiq göstəricinin 82 faizini təşkil edirdi.

## AZƏRBAYCAN SƏNAYESİNİN SAHƏ, ƏRAZİ QURULUŞUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ, İSTEHSALIN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI

Xalq təsərrüfatında yaranmış vəziyyəti ətraflı təhlil edən Heydər Əliyev diqqəti ona cəlb edirdi ki, respublika sənayesinin əsas sahəsi olan neft sənayesində 1967-ci ildən etibarən istehsal azalmış, bu sahənin səmərəlilik göstəriciləri müharibədən sonrakı bütün beşilliklərdə olduğundan ən aşağı səviyyəyə enmişdir. Bu müddətdə mütləq neft hasilatı 1,3 milyon ton, mütləq qaz hasilatı isə 659 milyon kubmetr azalmışdır ki, bu da qazmanın əhəmiyyətli dərəcədə, xüsusən kəşfiyyat qazmasının uzun müddət geridə qalması, mədənlərdə geoloji və texniki işlərin aşağı səviyyədə olması, istehsalat və əmək intizamının zəifləməsi, neftçilərin mədəni-məişət və mənzil ehtiyaclarına lazımi qayğı göstərilməməsi ilə bağlı olmuşdur. Keçən beşillik ərzində quyu qazılması həcmi bir milyon metr azalmışdır. Qazılıb qurtarmış 272 quyunun 84-ü və ya 31 faizi layihədə nəzərdə tutulan horizonta çatdırılmamışdır. Qazma işlərində təqvim vaxtının, demək olar ki, yarısı qəza hallarının aradan qaldırılmasına və təşkilat xarakterli boşdayanma hallarına sərf edilmişdir. Neft və qaz ehtiyatlarının artırılmasına dair planların yerinə yetirilməməsi başlıca olaraq məhz bu səbəblərlə əlaqədardır. Neft və qaz hasilatının artırılmasının ən yaxın perspektivləri Xəzər Dəniz Neft Birliyinin texniki təchizatının yüksəldilməsi, dəniz mədənlərinin abadlaşdırılmasının sürətləndirilməsi, yataqlardan istifadə edilməsinin qaydaya salınması ilə əlaqədardır. Heydər Əliyev hesab edirdi ki, biz diqqəti dəniz yataqlarından istifadə edilməsinə cəlb etməli, mezozoy çöküntülərində qazmanın səmərəliliyinə nail olmalı, quruda yerləşən mədənlərdə neft və qaz hasilatını sabitləşdirib artırmalı və bunun əsasında respublika neft sənayesinin bütün texniki-iqtisadi iş göstəricilərinin yaxşılaşmasına nail olmalıyıq.

Neft və qaz hasilatının azalması və xam neftin keyfiyyətinin bir qədər dəyişməsi neftayırma və neft kimyası sənayesinin inkişaf sürətinin zəifləməsinə gətirib çıxaran həlledici amillər olmuşdur. Neft və qazın qismən kənardan gətirilməsinə baxmayaraq, bunların kifayət qədər verilməməsi onunla nəticələnmişdir ki, neftayırma zavodlarının gücündən tam istifadə edilməmiş, bir çox neft məhsullarının istehsal planı xeyli kəsirlə yerinə yetirilmişdir. Bundan əlavə, texnikanın və texnologiyanın müasir istehsal səviyyəsindən geridə qalması, çoxlu xammal və hazır məhsul itkisi də sahənin inkişafını məhdudlaşdırmışdır. Maşınqayırma sahəsinin inkişaf göstəriciləri də yetərli olmamışdır. Respublika üzrə sənaye məhsulu buraxılışının ümumi həcmində maşınqayırmanın xüsusi çəkisi hələ aşağıdır - cəmi 9 faiz. Birlik beşilliyin tapşırıqlarını yerinə yetirməmişdir və orta illik artım sürəti planda nəzərdə tutulan 5,7 faiz əvəzinə 4,8 faiz olmuşdur.

1966-1968-ci illərdə orta hesabla müəssisələrin 20 faizi illik planı yerinə yetirməmişdir. 1970-ci ildə planı yerinə yetirməyən müəssisələrin sayı 13,2 faizədək azalmış olsa da, bu nəticə qənaətbəxş sayıla bilməzdi.

Respublika Mərkəzi Statistika İdarəsinin apardığı hesablamalara görə, iş vaxtı itkini hətta yarıbayarı azaltmaqla on milyonlarla manatlıq əlavə məhsul əldə edilə bilər. Amma fakt bu idi ki, hər 100 işçinin 25 nəfərindən çoxu işi buraxıb gedirdi. Təbiidir ki, kadrlar tez-tez dəyişdikdə işçilərin ixtisasının lazımınca yüksəlməsini təmin etmək çətindir. Təhlillər göstərirdi ki, axıcılıq, bir qayda olaraq, yüksək maaş ardınca qaçmağın nəticəsi deyildir. İş yerinin dəyişməsi çox vaxt əməyin pis təşkil edilməsinin, ixtisası artırmaq perspektivinin olmamasının, fəhlənin məişət və mədəni tələbatının ödənilməsinə qayğı göstərilməməsinin nəticəsi idi.

Heydər Əliyev narahatlıqla bildirirdi ki, bizdə məhsulun keyfiyyəti müəssisələrin fəaliyyətinə qiymət verilməsində əsas meyarlardan birinə çevrilməmişdir. İndiyədək respublikanın hələ heç bir sənaye məmulatı "Keyfiyyət nişanı"na layiq görülməmişdir: "Bir çox müəssisələrin rəhbərləri ümumi məhsul buraxılışına dair planların yerinə yetirilməsi ardınca qaçaraq aşağı keyfiyyətli məhsul buraxılması faktlarına göz yumurlar. Bu, respublikanın iqtisadiyyatına böyük ziyan vurur, istehlakçıların haqlı narazılığına səbəb olur. Məhsulun yüksək keyfiyyətinin təmin edilməsinə sənayenin partiya və təsərrüfat rəhbərləri çox mühüm qayğı göstərməlidirlər".

Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1976-cı il 27 iyul tarixli "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində" qərarı respublika iqtisadiyyatının yeni yüksəlişi üçün xüsusi əhəmiyyətə malik oldu. **Azərbaycan sənayesi məhsul satışının həcminə, əmək məhsuldarlığının yüksəldilməsinə və ən mühüm məmulat növlərinin istehsalına dair illik planı vaxtından əvvəl yerinə yetirdi. Plandan əlavə xeyli məhsul satıldı, təkcə maşınqayırma müəssisələrində 50 növ yeni məmulat istehsal olundu və 242 növ məmulat dövlət "Keyfiyyət nişanı" aldı.**

Eyni zamanda, respublika rəhbəri sənayenin inkişaf imkanlarından daha səmərəli istifadə olunmasının vacibliyini əsas tutaraq, aşağıdakıları İttifaq hökumətinin nəzərinə çatdırırdı: *"Azərbaycanın iqtisadi inkişafında sənayenin rolu artırılmalıdır. Belə ki, müharibənin nəticələri və neft yataqlarının uzun müddət intensiv işlədilməsi öz təsirini göstərdiyi bir vaxtda, dəniz yataqları istifadəyə verildiyinə baxmayaraq, neft hasilatı xeyli azalır. Respublikada sənaye istehsalı sürətinin azalması kimi ümumi bir meyil də başlanmışdır. Bunun qarşısını almaq üçün bir sıra yeni sənaye sahələri - qara metallurgiya, neft kimyası, kimya, elektrotexnika və filizçıxarma sənayesi yaradıldı. Lakin bu prosesi daha sürətlə aparmaq lazımdır. Amma görülən işlərin miqyası respublikanın imkanlarına və tələbatına uyğun deyildi, buna görə də ayrı-ayrı sahələrin və bütün sənayenin inkişaf sürəti onun dinamikliyinin və tarazlığının təmin edilməsinə təsir göstərə bilməz".*

**Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 4 aprel 1977-ci il tarixli 283 saylı "1990-cı ilə qədər dövrdə SSRİ-nin iqtisadi və sosial inkişafının əsas istiqamətləri layihəsinin hazırlanması haqqında"** qərarının həyata keçirilməsi haqqında Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti qərara aldı ki, Azərbaycan SSR Dövlət Plan Komitəsi, Elmlər Akademiyası, Dövlət Tikinti İdarəsi, Əmək üzrə Dövlət Komitəsi, respublika nazirlik və idarələri, İttifaq tabeli müəssisələr və təşkilatlar, Naxçıvan MSSR Nazirlər Soveti, DQMV İcraiyyə Komitəsi və respublika tabeli şəhərlərin icraiyyə komitələrinin iştirakı ilə respublikanın göstərilən uzunmüddətli perspektivdə mühüm vəzifələrini müəyyən etməklə, 1990-cı ilə qədər olan dövrdə SSRİ-nin iqtisadi və sosial inkişafının əsas istiqamətləri layihəsinin hazırlanması üçün dəqiqləşdirilmiş təkliflərini hazırlasınlar və bu təklifləri 1977-ci il noyabr ayının birinci yarısında Azərbaycan KP MK-ya və Azərbaycan SSR Nazirlər Sovetinə təqdim etsinlər.

Heydər Əliyev respublikanın dinamik inkişafı nəticəsində əldə olunmuş uğurları obyektiv, prinsipial qiymətləndirərək, gələcəkdə daha keyfiyyətli idarəetmə mexanizimlərindən istifadə edilməsini ön plana çəkməyi vacib sayırdı. Bu baxımdan onun məqsədli inkişaf proqramlarının tətbiqi barədə fikirləri bu gün üçün də dərin məna daşıyır. Çünki xalq təsərrüfatının mühüm problemlərinin həll olunmasının məqsədli proqram metodu planlaşdırmanı təkmilləşdirmək işində böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının rəhbəri qeyd edirdi ki, məqsədli kompleks planlaşdırma, elmi-texniki, iqtisadi, sosial problemlər xalq təsərrüfatının inkişafına dair dövlət planlarının çox mühüm tərkib hissəsinə çevrilməlidir.

**Respublika rəhbərinin bilavasitə təşəbbüsü ilə Azərbaycan SSR-də sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi və kənd təsərrüfatı istehsalının daha da ixtisaslaşdırılması, üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı hazırlanmış və İttifaq hökuməti tərəfindən təsdiq olunmuş proqramlarda sənayenin mütərəqqi sahələrinin yaradılması, yeni müəssisələrin tikilməsi, mövcud müəssisələrin əksəriyyətinin yenidən qurulması, genişləndirilməsi, yeni texnika ilə təchiz olunması, sənaye strukturunun daha da təkmilləşdirilməsi, şəhər və rayonların kompleks sosial inkişafı, əmək qabiliyyətli əhalidən səmərəli istifadə olunması, respublikanın ayrı-ayrı rayonları arasında iqtisadi fərqlərin aradan qaldırılması kimi bir çox vacib məsələlərin həlli nəzərdə tutulmuşdur.**

# iqtisadiyyatında yeni, inkişaf mərhələsidir

*Heydər Əliyev yanacaq-energetika kompleksinin inkişaf etdirilməsinə dair elmi surətdə əsaslandırılmış məqsədli proqram işləyib hazırlamağı birinci dərəcəli vəzifə hesab edirdi. Onun fikrincə, bu proqram xüsusən Xəzər dənizində neft və qaz hasilatının sabitləşdirilməsini və artırılmasını nəzərdə tutmalı idi: "Ən yaxın gələcəkdə bizim energetika qurğularını gücləndirmək, kimya və neft kimyası kompleksini genişləndirmək, xalq istehlakı mallarının istehsalını artırmaq və keyfiyyətini yaxşılaşdırmaq haqqında perspektiv planlarımız, əmək ehtiyatlarından və təbii ehtiyatlardan səmərəli istifadə edilməsinə, ətraf mühitin mühafizəsinə dair məqsədli proqramlarımız olmalıdır. Bütün bu problemlər iqtisadi və sosial inkişafın uzunmüddətli və beşillik planlarının müvafiq bölmələrində öz əksini tapmalıdır".*

Aparılan təhlillər sübut edirdi ki, iqtisadiyyatda mövcud olan nöqsanlar ilk növbədə, səmərəlilik göstəricilərinin kifayət qədər yüksək olmaması ilə izah edilir. Ona görə də təsərrüfat mexanizmini ciddi surətdə təkmilləşdirmək zərurəti yaranmışdır. Amma kəmiyyət göstəricilərinə üstünlük vermək meylinin dərin kök saldığı bir şəraitdə bu, o qədər də asan məsələ deyildi. Heydər Əliyev bu stereotipin sındırılması istiqamətində də SSRİ-də ilk təşəbbüs göstərən respublika rəhbərlərindən biri oldu. Onun bu barədə bəzi fikirlərinə müraciət edək:

*"Nazirliklərin, baş idarələrin və müəssisələrin fəaliyyətini qiymətləndirmək meyarının dəyişilməsi planlaşdırmanı və təsərrüfat mexanizmini təkmilləşdirmək sahəsində tədbirlər sistemində ən mühüm tədbirlərdən biridir. İndiyədək nazirliklərin və baş idarələrin yeni sistemə keçirilməsinə dair hətta dəqiq cədvəl də yoxdur, müəssisələrin bu sistemə keçirilməsi müddətləri müəyyən edilməmişdir. Demək lazımdır ki, sənayenin, onun ayrı-ayrı sahələrinin və müəssisələrinin işinin bütün cəhətlərinin təhlilinə daha artıq diqqət yetirilməlidir.*

*Təchizatın mütərəqqi formaları tətbiq edilməli, həmçinin idarəetmə sistemində dəyişikliklər edilməlidir. Respublika sənayesinin bir çox sahələrində idarəetmənin üç və hətta dörd pilləli sistemi hələ də üstünlük təşkil edir. Mövcud istehsalat birlikləri əsasən, İttifaq və İttifaq-respublika nazirliklərini və baş idarələrini təmsil edirlər. Respublika tabeliyində olan nazirliklər əsasında istehsalat birlikləri yaradılmalıdır. Sənaye istehsalının artan miqyasları, mürəkkəbləşən idarələrarası və idarədaxili əlaqələr həmçinin əlaqədar sahələrin, xüsusən elektrotexnika, cihazqayırma sənayesində, yerli sənayedə, meşə və ağac emalı sənayesində və bir sıra başqa sənaye sahələrində fəaliyyətin daha səmərəli əlaqələndirilməsini zəruri edir. İttifaq nazirlik və baş idarələri bu işə lazımınca maraq göstərmirlər".*

Heydər Əliyev tövsiyə edirdi ki, sənaye müəssisələri və istehsalatları yalnız ən yeni və çox səmərəli texnika və texnologiya əsasında layihələşdirilib tikilməli, yeni konstruksiyalar yaradılarkən layihə üsullarının yüksək texniki səviyyədə olması təmin edilməlidir: "Yeni işə salınan müəssisələrin məhsulları və yeni texnika nümunələri öz parametrlərinə və xassələrinə görə Vətənimizdə və xarici ölkələrdə istehsalın ən yüksək nailiyyətlərinə uyğun olsun. Müəssisələrin texniki nəzarət şöbələrinin işini gücləndirmək, onları təcrübəli mütəxəssislərlə komplektləşdirmək, həmin şöbələrin işini keyfiyyətsiz məhsul buraxılışının, zay işin qarşısının alınmasına yönəltmək lazımdır".

## PLAN, ƏMƏK İNTİZAMININ MÖHKƏMLƏNDİRİLMƏSİ RESURSLARDAN SƏMƏRƏLİ İSTİFADƏ İMKANLARINI ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ GENİŞLƏNDİRDİ

Respublika rəhbəri görülmüş işlərə yekun vuraraq bildirirdi ki, son aylarda görülmüş tədbirlər nəticəsində xalq təsərrüfatının göstəriciləri müəyyən dərəcədə yaxşılaşmış, mövcud problemlərin həlli üçün əlverişli mühitin yaradılması istiqamətində konkret addımlar atılmışdır. Lakin görüləsi işlər çoxdur. İllər boyu yığılıb qalmış məsələləri həll etmək üçün daha böyük işlər görmək, İttifaq orqanları ilə əməkdaşlığın gücləndirilməsinə xeyli səy göstərmək tələb olunur. İlk növbədə, İttifaq hökuməti qarşısında Azərbaycanın xalq təsərrüfatının inkişafına dair konkret məsələlər qaldırılmalıdır. Bu məqsədlə respublika rəhbəri İttifaq nazirlikləri ilə danışıqlar aparır, Azərbaycanın gələcək inkişafına dair xüsusi qərarın hazırlanması barədə Nazirlər Sovetinə, Dövlət Plan Komitəsinə konkret tapşırıqlar verirdi.

İqtisadi araşdırmalar bunu deməyə əsas verirdi ki, bütün bu kimi halların baş verməsinin mühüm səbəblərindən biri heç şübhəsiz ki, sərt planlı, inzibati-amirlik sistemində istifadə olunan iqtisadi mexanizmlərin xeyli dərəcədə səmərəli olmaması, müəssisələrin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsində onların təşəbbüskarlığının məhdudlaşdırılması, həvəsləndirmə sisteminin təkmil olmaması, respublikaların sosial-iqtisadi inkişaf məsələlərinin həllində hüquqlarının azlığı idi. Onu da qeyd edək ki, hesabatlardakı saxtakarlıq halları sovet iqtisadiyyatı üçün xarakterik bir cəhət olduğuna görə belə hallarda bununla mübarizə aparmaq, həqiqətən, çətin idi. Ona görə Heydər Əliyev bu məsələni müzakirə edərkən, ilk növbədə, onun etik, tərbiyəvi, hüquqi cəhətlərinə xüsusi fikir verir və bildirirdi ki, xalq təsərrüfatında uçotun qaydaya salınması və saxta hesabatların təqdim edilməsi işində lazımi qaydanın yaradılması vacib vəzifədir. Düzgün uçot intizam, qayda-qanun deməkdir.

Heydər Əliyev respublikanın ictimai-siyasi, mənəvi həyatında müsbət meyillərin güclənməsi üçün daha bir vacib məsələyə - respublikanın bəzi nazirlik və təşkilatlarında xalq mülkiyyətinin qorunması, dövlət və ictimai mülkiyyətin oğurlanması halları ilə mübarizə tədbirlərinə də diqqəti artırmağı vacib saydı. 22 oktyabr 1971-ci il tarixli MK-nın Büro iclasında bu məsələ ilə əlaqədar respublika rəhbəri demişdir:

"Biz bu məsələnin müzakirəsinə çox vaxt sərf etdik, ona görə ki, sosialist mülkiyyətinin qorunması mühüm siyasi və iqtisadi əhəmiyyət kəsb edir.

Respublikada xalq təsərrüfatı planlarının yerinə yetirilməsi sahəsində saxta hesabatların təqdim edilməsi faktları ilə bağlı məsələnin Azərbaycan KP MK-da müzakirəsi zamanı aydın olmuşdur ki, respublikanın bir sıra sənaye müəssisələri, tikinti, nəqliyyat, kolxoz və sovxozlarında, ticarət-iaşə təşkilatlarında və hesabatlarda saxtakarlıq faktları aşkar edilmişdir. Bu məsələ ilə əlaqədar arayışda göstərilirdi ki, 1970-ci il iyulun 1-dən 1971-ci il iyulun 1-nə kimi respublikanın statistika orqanları tərəfindən dövlət hesabatlarının həqiqiliyini öyrənmək məqsədilə xalq təsərrüfatının bütün sahələrini əhatə edən 1405 obyektdə yoxlamalar aparılmışdır. Onlardan 432-si və ya 30,7%-də hesabat sənədlərinin saxtalaşdırılması faktları aşkar edilmişdir.

1970-1971-ci illərdə bu sahədə çox böyük işlər görülmüşdür. Çoxlu kobud səhvlər aşkarlanmış, sosialist mülkiyyətinin mənimsənilməsi hallarının qarşısı alınmışdır. Bəziləri cinayət məsuliyyətinə cəlb edilmiş, digərlərinə münasibətdə isə istintaq gedir. Hazırda sosialist mülkiyyətinin böyük və kiçik həcmdə mənimsənilməsi halları respublika xalq təsərrüfatının bütün sahələrinə nüfuz etmişdir. Ona görə də biz bu məsələni MK-nın Büro iclasında müzakirə etmək qənaətinə gəldik. Niyə belə hallar baş verir? Bu, hamıya aydındır. Bu sualın kökü çox dərindir. Əlbəttə ki, belə hallar uzun illər partiya tərəfindən əhali arasında sosialist mülkiyyətinin qorunması, ondan qənaətlə istifadə edilməsi sahəsində zəif iş aparıldığını deməyə əsas verir. Bununla yanaşı, belə hallar bir də ona görə baş verir ki, mənimsənilən dövlət və ictimai mülkiyyətdir. Nazirlik, təşkilat və müəssisə rəhbərləri isə dövlət və ictimai mülkiyyətə öz mülkiyyəti kimi baxmırlar".

Göründüyü kimi, Heydər Əliyev SSRİ-nin dağılmasından 20 il əvvəl xüsusi mülkiyyətin üstünlüyü barədə açıq-aşkar öz mövqeyini bildirirdi. Bu, çox cəsarətli, gələcəyə hədəflənmiş bir çıxış idi.

Heydər Əliyevi lider kimi fərqləndirən cəhətlərdən biri də onun iqtisadi təhlillərdə müqayisə metodundan bacarıqla istifadə etməsi idi. Bu yolda o, sahənin irəlidə, yaxud geridə olması, problemin ciddiliyi barədə düzgün nəticələr çıxarmaq imkanı əldə edir, cavabdeh şəxslərdə məsuliyyət hissini artırırdı. **Bəzən elə olurdu ki, onun sədrliyi ilə keçən zona müşavirələrində çıxış edən rayon rəhbəri, ya da nazir müqayisəli təhlil aparmadan məhsuldarlıq, məhsulun dinamikası barədə məlumat verir və əldə etdikləri nəticələrin yüksək olduğunu bəyan edirdi. Belə olduqda Heydər Əliyev soruşurdu ki, bəs,** qonşu rayonda, respublikadan kənarda vəziyyət necədir? Bu baxımdan MK-nın büro iclaslarından birində onun söylədiyi fikir çox maraqlıdır:

**"Kənd təsərrüfatı istehsalı üzrə artım sürəti 38% müəyyən edilib. Burada qeyd etmək istəyirəm ki, ölkə üzrə kənd təsərrüfatı istehsalının artım sürəti 28% nəzərdə tutulub. Və heç bir respublikada kənd təsərrüfatı istehsalının 38% artım sürəti yoxdur. Bu, çox yüksək dinamikadır, bizdə heç vaxt belə artım sürəti olmamışdır. Bu sürət kənd təsərrüfatını qaldırmaq zərurətindən və Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin Azərbaycanda kənd təsərrüfatının inkişaf tədbirləri haqqında qərarının yerinə yetirilməsinin zəruriliyindən doğur. Bununla belə, bu artıma respublikanın nail olması tamamilə realdır".**

Azərbaycanın sovet sisteminin tərkibində olduğu bütün mərhələlərdə Dövlət Plan Komitəsi, həqiqətən, son dərəcə vacib funksiyalar yerinə yetirmiş, respublikanın inkişafına öz töhfəsini vermişdir.

Dövlət Plan Komitəsi Azərbaycanın sosial-iqtisadi inkişaf planlarının hazırlanmasında, idarəetmə sisteminin təkmilləşdirilməsində fəal iştirak edən mühüm idarəetmə strukturu sayılırdı. Ona görə də respublika rəhbəri respublikanın sosial-iqtisadi inkişaf planlarının hazırlanmasında bu orqanın xüsusi məsuliyyət daşıdığını vurğulayırdı:

"Hesab edirəm ki, respublika Dövlət Plan Komitəsində sağlamlaşdırma işlərini aparmaq üçün bacarıqlı adamları irəli çəkmək lazımdır. Bütün səviyyələrdə nizam-intizamı artırmaq və möhkəmləndirmək lazımdır və bu işdə komitə rəhbərliyi, kollegiya və partiya təşkilatları ciddi və prinsipial mövqe tutmalıdırlar. Dövlət Plan Komitəsinin təsərrüfat fəaliyyətində planlaşdırmanın obyektivliyinin təmin edilməsinə xüsusi fikir vermək lazımdır. Bu, bizim bütün gələcək işlərimizin, xalq təsərrüfatı planlarının uğurla yerinə yetirilməsi deməkdir. Obyektivlik hər bir şeyə münasibətdə olmalıdır", - deyən Heydər Əliyev **daha sonra Nazirlər Sovetinin və Dövlət Plan Komitəsinin nəzərinə çatdırırdı ki, biz bütövlükdə Dövlət Plan Komitəsinin təqdim etdiyi material və təklifləri əsaslandırdığımız üçün onların hazırladıqları iş dərindən əsaslandırılmalı, təhlil edilməli və proqnozlaşdırılmalıdır.**

**Heydər Əliyev deyirdi: "Obyektivlik hər bir nazirlik, müəssisə, təşkilat və rayona münasibətdə tətbiq edilməlidir. Bizə faktlar məlumdur ki, rayon rəhbərləri rüşvət verərək, plan göstəricilərinin aşağı salınmasına nail olurlar. Bu çirkin yola getməyən rayon rəhbərləri isə əsassız yüksək plan tapşırıqları ilə üzləşirlər. Nəticədə ciddi uyğunsuzluqlar yaranır və biz ehtiyatlarımızdan tam istifadə edə bilmirik. Rayon kənd təsərrüfatı idarəsinin rəisini işdən qovmağımıza baxmayaraq, hesab edirəm ki, belə hallar hələ də qalmaqdadır. Bu məsələyə ciddi yanaşmaq lazımdır. Bizim respublikamız üçün düzgün təhlil, hesablama və proqnozlaşdırma hər şeydən vacibdir.**

**Bu işlər təkcə gələcək beşillik üçün deyil, həm də perspektiv üçün də aparılmalıdır. Keçən illərdə buraxılmış səhvlər bizi Azərbaycan iqtisadiyyatını və sənayesini 15-20-30 ildən sonra hansı istiqamətdə inkişaf etdirmək barədə ciddi düşünməyə vadar edir və bununla əlaqədar olaraq biz Dövlət Plan Komitəsindən ciddi əsaslandırılmış iş tələb edirik. Bu baxımdan Dövlət Plan Komitəsi aktiv olaraq təşəbbüslə çıxış etməlidir".**

1971-ci ildə kolxoz və sovxozlar dövlətə 381,6 min ton pambıq təhvil verdilər.

Məhsulun 92 faizi birinci növ kimi qəbul edildi. Dövlətə plandan əlavə təqribən 60 min ton pambıq, 6,5 min ton tütün satıldı. Respublikamız bu nailiyyətlərə görə Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-nin və ÜİLKGİ MK-nın ikinci dəfə Keçici Qırmızı Bayrağı ilə təltif edildi. Bundan əlavə, elmi-texniki tərəqqini təmin edən sahələrin daha sürətlə inkişaf etdirilməsi, istehsalın səmərəlilik göstəricilərinin yaxşılaşması ilə bağlı konkret tədbirlər həyata keçirildi. Sənayenin inkişafında da müsbət meyillər özünü göstərirdi.

1973-cü ildə respublika sənayesi istehsalın həcmi və əmək məhsuldarlığının artım sürətinə görə ittifaqda birinci yerə çıxdı. 2 mindən çox fəhlə, 82 briqada beşilliyi üç ildə başa çatdırdı. Xalq təsərrüfatı planlarının vaxtından əvvəl yerinə yetirilməsi uğrunda ölkənin sənaye, tikinti və nəqliyyat işçilərinin Ümumittifaq sosializm yarışının yekunlarına görə Azərbaycan



SSR-ə, Naxçıvan MSSR-ə və bir sıra qabaqcıl müəssisələrə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMİ-nin və ÜİLKGİ MK-nın Keçici Qırmızı Bayrağı verildi.

## ƏSASLI TİKİNTİDƏ DÖNÜŞ YARADILDI

Odur ki, Azərbaycan Kommunist Partiyasının XXVIII qurultayında əsaslı tikintidə yaranmış vəziyyət dərindən təhlil edilmiş və göstərilmişdir ki, xalq təsərrüfatının bu mühüm sahəsində əldə edilmiş nailiyyətlərə baxmayaraq, mövcud olan ciddi problemlər respublikada milli gəlirin artımını zəiflətmiş, istehsalın maddi-texniki bazasının mövcud səviyyəsi ilə texniki tərəqqinin tələbləri arasında uyğunsuzluq yaratmışdır. VII və VIII beşilliklərdə milli gəlirin hər manatı üçün tələb edilən əsaslı vəsait qoyuluşunun miqdarı artmış, əsas fondların istifadəyə verilməsi əsaslı vəsait qoyuluşunun artım sürətindən xeyli geri qalmışdır. Təkcə onu göstərmək kifayətdir ki, VIII beşillikdə respublikada 1 milyard rubl əsas fond istifadəyə verilməmişdir ki, bu da beşillik üzrə nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşunun 25 faizini təşkil edirdi.

1965-1970-ci illərdə Azərbaycan SSR-də kapital qoyuluşlarının səmərəlilik səviyyəsi orta İttifaq səviyyəsindən təxminən 33-35% aşağı olmuşdur.

Əsaslı tikintinin vəziyyəti 1971-ci ilin iyul ayında Azərbaycan KP MK plenumunda ətraflı təhlil edildi. Plenum ciddi nöqsanları aşkara çıxardı və onların aradan qaldırılması üçün konkret tədbirlər müəyyən etdi. Tikintiyə rəhbərliyi daha da yaxşılaşdırmaq, əsaslı vəsait qoyuluşundan səmərəli istifadə etmək, tikinti müddətlərini qısaltmaq və keyfiyyətini yaxşılaşdırmaq üçün nazirliklərin və baş idarələrin rəhbərlərinin şəxsi məsuliyyətini artırmaq məqsədilə tədbirlər görüldü. Sənaye və Kənd Tikintisi nazirliklərinin, əsas podrat təşkilatlarının rəhbərlikləri möhkəmləndirildi, demək olar, bütün sifarişçi nazirliklərdə və baş idarələrdə tikinti üzrə müavin vəzifələri yaradıldı.

1971-1980-ci illərdə tikintinin inkişafına müharibədən sonrakı dövrlə müqayisədə 2,1 dəfə çox vəsait yönəldilmişdir. Əsas nəticələrdən biri də podrat təşkilatların maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmlənməsi hesabına onlar tərəfindən yerinə yetirilmiş işlərin orta illik həcminin 2 dəfə artması olmuşdur. Bir sıra regionlarda bu proses daha geniş vüsət almışdır.

**X beşillik ərzində respublikamızın xalq təsərrüfatına təxminən 9 milyard rubl vəsait xərcləndi ki, bu da sovet hakimiyyəti illərində respublikanın xalq təsərrüfatına qoyulmuş əsaslı vəsaitin təqribən 28 faizindən çox idi. Ümumiyyətlə, IX və X beşilliklərdə Azərbaycanın iqtisadi və sosial inkişafına 16 milyard rubl vəsait xərcləndi ki, bu da 1920-1980-ci illərdə həmin məqsədlər üçün ayrılmış bütün əsaslı vəsait qoyuluşunun yarısına bərabər idi.**

Ümumiyyətlə, IX və X beşillikdə Azərbaycanın xalq təsərrüfatına 15 milyard rubl əsaslı vəsait qoyulmuşdur ki, bu da əvvəlki 20 ildəkinə nisbətən 2 milyard rubl çox idi. 126 yeni iri müəssisə, 70 sex və istehsalat sahəsi tikilib işə salınmış, mövcud müəssisələri yenidən qurmaq və yeni texnika ilə təchiz etmək üçün geniş proqram həyata keçirilmişdir.

Respublikanın regionlarında ət-süd, yeyinti sənayesi obyektlərinin istifadəyə verilməsi ilə böyük işlər görülürdü. Lakin bu iş o qədər asan başa gəlmirdi. Planlaşdırmada nöqsanlar, maliyyə və maddi resursların həcmi arasında uyğunsuzluqlar, yerlərdə tikinti bazasının məhdudluğu, kadr çatışmazlığı özünü göstərirdi.

Ona görə də respublika rəhbərliyi obyektlərin istifadəyə verilməsi prosesini daim nəzarət altında saxlayırdı. SSRİ kimi nəhəng bir ölkədə hətta ən kiçik müəssisənin tikintisi İttifaq nazirliyi tərəfindən müəyyənləşdirilirdi. Bu, bir daha respublika rəhbərliyinin iqtisadi inkişafla bağlı gördüyü işlərin nə qədər genişmiqyaslı və əzəmətli olduğundan xəbər verir. Qısa zaman kəsiyində respublika ərazisində yerli resurslardan səmərəli istifadə əsasında çoxistiqamətli ixtisaslaşmaya və istehsal strukturuna malik iqtisadi rayonlar formalaşdırıldı. Keçmişdə olduqca zəif sənaye istehsalına malik rayonlar indi respublika sənayesinin ümumi məhsulunun 1/3-dən çoxunu verirdi. İqtisadi rayonlarda kənd təsərrüfatının yerli təbii-iqtisadi şəraitinə müvafiq olaraq ixtisaslaşma və təmərküzləşmə prosesi həyata keçirilirdi. Hər bir iqtisadi rayonda yerli tikinti bazası, əhaliyə və xalq təsərrüfatına xidmət edən sosial və istehsal təyinatlı infrastrukturun geniş şəbəkəsi yaradıldı.

Ümumiyyətlə, ötən əsrin 70-ci illərində respublikanın iqtisadi və sosial inkişafında bu mühüm sahənin rolunun daha da artırılması, ictimai istehsalın sosial-iqtisadi səmərəliliyinin yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər böyük müvəffəqiyyətlə nəticələndi: əsaslı tikintinin maddi-texniki bazası xeyli möhkəmləndirildi, iqtisadi və sosial inkişaf vəzifələrinin yerinə yetirilməsinə ayrılan əsaslı vəsaitin həcmi artırıldı, onun sahə, texnoloji, ərazi strukturu əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, daha sürətlə, sərfəli və müasir texnika əsasında iş görməyə qadir olan ixtisaslı inşaatçı dəstələri yaradıldı, tikinti təşkilatlarının idarə edilməsi sistemi təkmilləşdirildi, istehsal və qeyri-istehsal obyektlərinin tikintidə plan intizamı daha da gücləndirildi, tikintinin əmək məhsuldarlığı və istehsalın səmərəliliyi yüksəldildi. Bütün bunlar qarşıdakı dövrdə daha böyük yüksəliş proqramının qəbul edilməsi və Azərbaycanın iqtisadi və sosial tərəqqisi üçün yeni perspektivlər açdı. Ən əsası respublika rəhbəri əsaslı tikintinin daha sürətlə inkişafına dair İttifaq hökuməti qarşısında qoyduğu məsələlərin həllinə nail oldu və bu sahənin gələcək inkişafı ilə bağlı yeni hədəflər müəyyənləşdirildi.

XX əsrin ən məhsuldar və keyfiyyətli inkişaf dövrü - 1970-1985-ci illər Azərbaycanın iqtisadi tarixinə IX-XI beşilliklər məhsuldar və keyfiyyətli inkişaf dövrü kimi daxil olmuşdur. Bu dövrdə elektrik enerjisi, dəyişən cərəyanlı elektrik mühərrikləri, neft sənayesi avadanlıqları, yığma dəmir-beton konstruksiyaları və məmulatları, meyvə və tərəvəz konservləri, çörək və çörək-bulka məmulatları, süd məhsulları, bitki yağları və s. emal sənayesi sahələri üçün mühüm istehsal gücləri tikilmiş və fəaliyyətə başlamışdır. Əvvəlki beşilliklərdən xeyli çox qaz kəməri magistralları və paylayıcı xətləri, neft və neft məhsullarını nəql edən kəmərlər, avtomobil yolları çəkilmiş, avtomat telefon stansiyaları tikilərək işə salınmış, heyvandarlıq üçün müasir iri komplekslər, qarışıq və qüvvəli yemlər istehsalı sahələri yaradılmış, sənaye əsasında quşçuluq təsərrüfatlarının fəaliyyətə başlamasına nail olunmuşdu.

**1979-cu ilin avqust ayında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ad verilməsi Azərbaycan partiya təşkilatının, respublika zəhmətkeşlərinin fədakar əməyinə verilən böyük qiymət kimi qarşılandı.**

Sənaye işçiləri məhsul satışına dair illik planı vaxtından əvvəl yerinə yetirərək əlavə 450 milyon rublluq məhsul istehsal etdilər. Kənd əməkçiləri dövlətə müəyyən edilən tapşırıqdan əlavə 104,6 min ton taxıl, 192,3 min ton pambıq, 133,1 min ton üzüm, 78,4 min ton tərəvəz, 29,8 min tondan artıq meyvə, 5,5 min ton yaşıl çay yarpağı, 6,5 min ton kartof, 5 min tondan çox tütün, 7 min ton bostan məhsulları, 31,7 min ton süd, 25,4 milyon ədəd yumurta və çoxlu başqa məhsullar satdılar. Ümumiyyətlə, 1979-cu il respublikanın bütün iqtisadi və sosial həyatında rekord yüksəliş ili oldu. Azərbaycan SSR Ümumittifaq sosializm yarışında onuncu dəfə qalib gəldi.

Onuncu beşillik vaxtından əvvəl - 4 il 3 ayda həyata keçirildi. Buna görə respublika üçüncü Lenin ordeni ilə təltif edildi. Təkcə X beşilliyin dörd ilində Azərbaycanda milli gəlir nəzərdə tutulan 22 faiz əvəzinə 32,5 faiz artdı. Sənayedə istehsal həcminin artımı 39 faizə, yəni 1980-ci ilin sonu üçün nəzərdə tutulan səviyyəyə çatdı. Elmi-texniki tərəqqini müəyyən edən sahələr sürətlə inkişaf etdi. Xalq təsərrüfatının inkişafına 7 milyard rubl vəsait qoyuldu. Respublikamızda 107 iri sənaye müəssisəsi, qurğu, ilkin şərab zavodları, nəhəng dəryaçalar və digər obyektlər istifadəyə verildi.

Dörd ildə kənd təsərrüfatında ümumi məhsul istehsalının həcmi 8 milyard rubla çatdı ki, bu da VIII beşillikdəkindən 1,5 dəfə çox idi. Kənd təsərrüfatında ümumi məhsul istehsalının orta illik artımı IX beşilliyə nisbətən 40 faiz artmışdır. Dörd ildə dövlətə 2 milyon 384 min ton pambıq satılmışdır ki, bu da VIII beşillikdəkindən 744 min ton artıq idi. üzümçülər 3,5 milyon ton və ya üst-üstə VIII və IX beşillikdəki qədər məhsul istehsal etmişlər. Tərəvəzçilər isə sahələrdən 3,4 milyon ton, plandan 818 min ton çox məhsul toplamışlar. İqtisadiyyatın sürətli inkişafı nəticəsində əhalinin həyat səviyyəsi də xeyli yüksəlmişdir. Adambaşına real gəlir 14,7 faiz çoxalmışdır. Azərbaycan Respublikası rəhbərinin xalq təsərrüfatının sürətlə inkişaf etdirilməsi sahəsində apardığı böyük təşkilatçılıq işi, respublika əhalisinin fədakar əməyi nəticəsində məcmu ictimai məhsulun və milli gəlirin artım sürətinin xeyli yüksəldilməsi təmin olundu.

X beşilliyin dörd ili ərzində SSRİ-də milli gəlir 19, Azərbaycan SSR-də 33 faiz artmışdır. Ümumiyyətlə, 1970-1980-ci illərdə respublikada milli gəlirin iki dəfə artması təmin olunmuşdur. 1976-1980-ci illərdə respublikada milli gəlirin artımı planla müəyyən edilmiş 32 faiz əvəzinə 44 faiz olmuşdur.

Ümumiyyətlə, 70-ci illərdə respublikamızda iqtisadi inkişafın, onun səmərəliliyinin yüksəldilməsinin və xalqın rifah halının yaxşılaşmasının ən ümumiləşdirici göstəricisi olan milli gəlirin yüksək artım sürəti təmin edilmiş, ictimai istehsalın bu mühüm göstəricisi üzrə plan tapşırıqları uğurla yerinə yetirilmişdir. 70-ci illərdə respublikada milli gəlirin daha sürətlə artmasının ən böyük ictimai və siyasi əhəmiyyəti bundan ibarət idi ki, İttifaq üzrə istehsal edilən milli gəlirin ümumi həcmində Azərbaycan SSR-in payının azalması meyli nəinki aradan qaldırılmış, həmçinin onun xüsusi çəkisinin artmasına nail olunmuşdur. Hər bir dövlət üçün istehsal olunmuş milli gəlirin artımı iqtisadi və sosial tərəqqi ilə bağlı olan əsas məsələlərin həllinin maddi əsası kimi qiymətləndirilir. Bu baxımdan SSRİ-nin də bir siyasi sistem kimi fəaliyyətinin bütün mərhələlərində ölkənin xalq təsərrüfatının inkişaf planlarında milli gəlir əsas göstərici kimi qiymətləndirilir, ona iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinin həlledici amili kimi baxılırdı.

Bir daha qeyd etmək istəyirəm ki, həmin illər sovet dövrünün görkəmli iqtisadçı alimləri, idarəetmə strukturları adambaşına istehsal olunan milli gəliri iqtisadi inkişaf səviyyəsini xarakterizə edən ən başlıca göstərici sayırdılar. Çünki qalan şərtlər bərabər olarsa, adambaşına milli gəlirin artması maddi, əmək, təbii və s. ehtiyatlardan istifadənin yaxşılaşmasını, əhalinin maddi və mədəni rifah halının daha da yaxşılaşması imkanlarının genişləndiyini sübut edir. İttifaqdan fərqli olaraq, müttəfiq respublikalarda iqtisadi inkişaf səviyyəsinin ümumiləşdirici göstəricisini, əsasən, 1958-ci ildən sonra, yəni respublikalar üzrə milli gəlirin ardıcıl surətdə hesablandığı dövrdən hesablamaq mümkün olmuşdur.

Hesablamalar göstərirdi ki, 1960-1980-ci illərdə respublikamızda adambaşına milli gəlir istehsalı iki dəfədən çox artmışdır. Lakin bu artımın əsas hissəsi IX və X beşilliklərdə əldə olunmuşdur. IX, X və XI beşilliklərin hər ili üzrə xalq təsərrüfatı planlarının artıqlaması ilə yerinə yetirilməsi, sənayenin və kənd təsərrüfatının yüksək sürətlə inkişafı bu geriliyi aradan qaldırmağa, sosial-iqtisadi inkişaf göstəricilərini xeyli yaxşılaşdırmağa imkan yaratmışdı.

Respublikada məhsulun keyfiyyətini daha da yüksəltmək sahəsində əzmlə və məqsədyönlü iş aparılırdı. Sənaye istehsalının ümumi həcmində yüksək keyfiyyət kateqoriyalı məhsulun xüsusi çəkisi 1975-ci ildəki 1,3 faiz əvəzinə 15,3 faizə çatdırılmışdır. "Keyfiyyət nişan"lı məmulatın miqdarı beş dəfədən çox artmışdır. Bütün səviyyələrdə təsərrüfatçılığın yaxşılaşdırılması, maddi ehtiyatlardan və əmək ehtiyatlarından qənaətlə istifadə edilməsi hesabına beşilliyin dörd ili ərzində ümumən sənayedə mənfəət doqquzuncu beşilliyin müvafiq dövründəkinə nisbətən 1,7 dəfə artmışdır. Xalq istehlakı malları istehsalı üstün sürətlə inkişaf edir.

Xalq yazıçısı Mirzə İbrahimov isə "Qələbə" adlı yazısında deyirdi:

**"Respublikamız sənaye və kənd təsərrüfatı məhsulları istehsalı üzrə onuncu beşillik tapşırıqlarını vaxtından xeyli əvvəl yerinə yetirməyə görə ölkənin ən yüksək mükafatına layiq görülmüşdür. Bu, misilsiz qələbədir! On il əvvəli yadınıza salın, o illərin heç birində respublika belə yüksək göstəricilərə, yüksək şərəfə nail olmamışdır.**

**Leonid İliç Brejnev respublikamızın 70-ci illərdəki əmək coşqunluğunu, xalqın, bütün fəhlələrin, kolxozçuların və ziyalıların düzgün, qızğın, hərarətli işini özünəməxsus yığcam, lakin çox mənalı, hikmətli ifadə ilə səviyyələndirərək demişdir: "Azərbaycan iri addımlarla irəliləyir".**

**Bu qanadlı ifadə indiki günlərdə necə də gözəl səslənir, xalqımızın ürəyində yeni həvəs, yeni yaradıcılıq arzuları oyadır.**

**Necə olub ki, Ümumittifaq yarışında ölkə xalqlarının, minlərlə zəhmətkeş kollektivlərinin, elm-maarif və sənət ocaqlarının qüvvəsi səfərbər edildiyi yarışda Azərbaycan on il dalbadal Keçici Qırmızı Bayrağı əlində saxlaya bilmişdir? Bunun bircə sirri var: insanların əməyinin düzgün, elmi əsaslarla təşkili, onların işə yaradıcı münasibəti, potensial qüvvələrin fəaliyyətə keçməsi!** İlk nəzərdə çox sadə, çox adi görünən bir həqiqət!

**Bu,** mənim ana yurdum, sosialist Vətənim, çiçəklənən Azərbaycanım, sən xoşbəxtsən ki, insan əməyinə, hər kollektivin, hər adamın faydalı işinə yüksək qiymət verilən bir həyat şəraitində, qardaşlıq ailəsində yaşayırsan. Burada insan ləyaqətinin ən düzgün meyarı var - Halal əmək! Əməli işdə özünü göstərən istedad! Buna görə də sənin qəhrəman əməyin belə yüksək qiymət almışdır, Azərbaycan!

Şərəf və şöhrət tacını başda saxlamaq, onu qazanmaqdan heç də asan deyil. Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev yoldaşın son çıxışlarının birində dediyi sözlər yadıma düşür: biz irəliyə getməyə, yoxuşlar aşıb zirvələr fəth etməyə öyrənmişik. Lakin ictimai həyatın, fasiləsiz iqtisadi və mədəni yüksəlişin yoxuşları getdikcə sərtləşir, zirvələri getdikcə daha artıq fəzaların qoynuna, nəhayətsiz boşluqlara uzanır. Ora qalxmaq, o zirvələri fəth etmək yolunda daha böyük, daha ağıllı hərəkət, daha böyük əmək və səy tələb edir!

**Mənim ana yurdum, gözəl sosialist Vətənimiz Azərbaycan! Lenin ordenin mübarək!**

**Sən yüksəlişdəsən, uca-uca zirvələr yolundasan. Uğurlar olsun sənə, müqəddəs Odlar yurdu!"**

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün illərdə iqtisadiyyatın idarə edilməsini təkmilləşdirmək, İttifaq orqanları ilə işgüzar əlaqələri yaxşılaşdırmaq məsələsini daim diqqət mərkəzində saxlayırdı. O, tam əmin idi ki, sərt mərkəzləşdirmə sistemi yerli imkanlardan səmərəli istifadəni məhdudlaşdırır. Ona görə də o, respublika rəhbəri kimi yerlərdə təşəbbüskarlığı artırmağı vacib vəzifə kimi qiymətləndirir, iqtisadiyyatın idarə olunmasında Azərbaycanın hüquqlarının genişləndirilməsinə dair İttifaq hökumətinə təkliflərlə müraciət edir və onların həllinə nail olurdu.

Azərbaycanın gələcəyinə böyük ümidlərlə baxan Heydər Əliyev deyirdi: **"Lakin əldə etdiyimiz və 1980-ci ilin yekunlarına görə əldə edəcəyimiz yüksək sürət adambaşına milli gəlir bölgüsü cəhətdən respublikamızı orta İttifaq səviyyəsinə qaldırmır. Deməli, biz milli gəlirin yüksək artım sürətini bundan sonra da təmin etməliyik. Bu, başlıca vəzifələrdən biridir, on birinci beşillik və uzunmüddətli perspektiv üçün respublikanın sosial-iqtisadi inkişaf konsepsiyasının ümdə prinsiplərindən biridir. Nazirliklərin, baş idarələrin, xüsusən Dövlət Plan Komitəsinin və Nazirlər Sovetinin rəhbərləri on birinci beşillik üçün plan işləyib hazırlayarkən bu tələbləri, bu prinsipləri nəzərdə tutmalıdırlar".**

Bu sözlər təxminən 40 il əvvəl - 1980-ci ildə səslənmişdir. Azərbaycan xalqının lideri Heydər Əliyevin fikirləri Azərbaycanın bu günü və gələcəyi üçün də son dərəcə dəyərli və istiqamətləndirici məna daşıyır.

**Ziyad SƏMƏDZADƏ,**
**akademik.**

# Azərbaycan-Gürcüstan-Türkiyə parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli görüşü uğurlu platformadır

**İyulun 15-də Milli Məclisin Sədri Oqtay Əsədov Bakıda keçirilən Azərbaycan-Gürcüstan-Türkiyə parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli toplantısının iştirakçıları ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Spiker üçtərəfli görüşün parlamentlərarası münasibətlərimizin daha da inkişafına dəyərli töhfə verəcəyinə inamını bildirib. Qeyd edib ki, bu cür görüşlərin müntəzəm keçirilməsi beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlıq üçün möhkəm zəmin yaradır.

Görüşdə bildirilib ki, bu formatda tədbirlərin keçirilməsi ənənəsi 2014-cü ilin aprelində məhz Bakıda yaranıb. Sonrakı görüşlər müvafiq olaraq Gürcüstanda və Türkiyədə keçirilib. Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli əsasda əməkdaşlıq həm ölkələrimizin liderləri, həm də ayrı-ayrı struktur təşkilatlarımızın rəhbərləri arasında formalaşdırılıb. Bu cür çoxtərəfli əməkdaşlıq platformasının qurulması anlaşılan bir haldır, çünki Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlıq regional sülhün və sabitliyin, hərtərəfli inkişafın əsas dəstəkləyici amillərindən biridir. Azərbaycan, Türkiyə və Gürcüstan Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması və möhkəmləndirilməsində maraqlıdır. Azərbaycanın ayrı-ayrılıqda həm Türkiyə, həm də Gürcüstan ilə yüksək səviyyəli, strateji xarakterli əlaqələri mövcuddur. Bu əlaqələr gündən-günə inkişaf edir.

Spiker belə bir fikri vurğulayıb ki, qloballaşan dünyada dövrün çağırışlarına cavab vermək baxımından hər üç ölkə parlamentindəki xarici əlaqələr komitələri üzvlərinin, o cümlədən beynəlxalq təşkilatlarda təmsil olunan digər deputatların mütəmadi görüşləri çox önəmlidir.

Türkiyə və Gürcüstan nümayəndələri Azərbaycan parlamentində yüksək səviyyədə təşkil olunmuş bu tədbirə verdiyi dəstəyə görə Spiker Oqtay Əsədova təşəkkür edib, üçtərəfli görüşün nəticələrini yüksək dəyərləndiriblər. Bildirilib ki, belə tədbirlər regionda baş verən proseslərin müzakirəsi, həyatın müxtəlif sahələrində əlaqələrin daha da dərinləşməsi üçün uğurlu platformadır.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin sədri Volkan Bozkır, Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Sofio Katsarava, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və digər rəsmi şəxslər iştirak ediblər.

**AZƏRTAC**

# Xarici İşlər Nazirliyi ADA Universiteti ilə birlikdə "Azərbaycan diplomatiyası-100 il" adlı diplomatiya həftəsi təşkil edib





**Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi çərçivəsində Xarici İşlər Nazirliyi ADA Universiteti ilə birlikdə "Azərbaycan diplomatiyası-100 il" adlı diplomatiya həftəsi təşkil edib.**

AZƏRTAC xəbər verir ki, iyulun 15-19-da keçiriləcək diplomatiya həftəsində Azərbaycanın xarici siyasəti və nailiyyətləri ilə bağlı ölkəmizin aparıcı ali təhsil ocaqlarında təhsil alan 50-yə yaxın tələbəyə sahə üzrə daha dolğun məlumatların verilməsi məqsədilə Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin rəsmiləri, eləcə də diplomatik nümayəndəliklərimizin rəhbərləri tərəfindən mühazirə və seminarlar təşkil olunacaq.

Diplomatiya həftəsinin açılışında çıxış edən Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, 100 illik tarixə malik olan Azərbaycan diplomatiyası bu gün böyük uğurlara imza atıb. Diplomatlarımız çalışdıqları ölkələrdə və beynəlxalq təşkilatlarda ölkəmizi layiqincə təmsil edir, Azərbaycanın haqlı mövqeyindən çıxış edirlər. Azərbaycanın dünyadakı mövqeləri möhkəmlənir. Bu gün Azərbaycan çox müsbət beynəlxalq imicə malik olan bir ölkədir. Dünya birliyi tərəfindən Azərbaycana böyük rəğbət bəslənilir.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə təmsil etdiyi təhsil ocağının gənc diplomatların yetişdirilməsində oynadığı roldan danışıb.

Qeyd edək ki, tədbir iştirakçıları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

Tələbələrə ulu öndər Heydər Əliyevin zəngin irsi barədə daha geniş məlumatın verilməsi məqsədilə onların Heydər Əliyev Mərkəzinə ekskursiyası planlaşdırılıb. Habelə Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, baş prodüseri Arzu Əliyevanın olduğu "Əbədi ezamiyyət" sənədli filminin nümayişi nəzərdə tutulub.

**AZƏRTAC**

# Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunlar orta rəis heyəti vəzifələrinə təyin olunublar





**İyulun 15-də Daxili İşlər Nazirliyində (DİN) bu il Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunların paytaxtın polis orqanlarında orta rəis heyəti vəzifələrinə təyin olunmaları ilə əlaqədar tədbir keçirilib.**

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirakçıları əlamətdar hadisə - zabit rütbələrinə layiq görülmələri, özlərinə çox şərəfli peşə və həyat yolu seçmələri münasibətilə təbrik edərək təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini, son illər bu praktikadan geniş istifadə olunduğunu xatırladıb.

Daxili İşlər naziri ölkə rəhbərliyinin gənclərə hər zaman diqqət və qayğı göstərdiyini, yüksək mənəvi, iş keyfiyyətlərinə malik bacarıqlı, istedadlı gənclərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün zəruri addımların atıldığını, hazırkı tədbirin də bunun bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

DİN-in Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov nazirliyə Bakıda qeydiyyatda olan 41 məzunun dəvət edildiyini bildirib, vakant vəzifələrin və namizədlərin siyahısını elan edib.

Sonra püşkatma yolu ilə təyinat keçirilib. Polisin orta rəis heyəti vəzifələrinə iddiaçı olanlar həmin vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkib və ərazi polis orqanlarında vakant olan zabit vəzifələrinə təyinat alıblar.

Akademiyanı fərqlənmə diplomu və əla qiymətlərlə bitirmiş beş məzundan 1-i nazirliyin Baş Təşkilat-İnspeksiya İdarəsinə, 1-i Baş Cinayət Axtarışı İdarəsinə, 1-i Baş Kadrlar İdarəsinə, 2-si isə müstəntiq vəzifələrinə təyin ediliblər.

Tədbirə yekun vuran Daxili İşlər naziri gəncləri şərəfli olduğu qədər yüksək məsuliyyət, işgüzarlıq, mükəmməl nəzəri bilik və praktik bacarıq tələb edən orta rəis heyəti vəzifələrinə təyin olunmaları münasibətilə bir daha təbriklərini çatdırıb, konkret tapşırıq və tövsiyələrini verib. O, xüsusi qeyd edib ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, ölkəmizdə sabitliyin dönməzliyinin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi qorunması kursu daxili işlər orqanlarının da üzərinə böyük və məsul vəzifələr qoyur.

Nazir vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, digər hüquq-mühafizə orqanları ilə birlikdə gərgin səylər hesabına respublikamızda əmin-amanlığın yaradıldığını, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında Ulu Öndərimizin və Prezident İlham Əliyevin vurğuladıqları kimi, məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların dövlətimizin başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini nəzərə çatdırıb.

Daxili İşlər naziri Vilayət Eyvazov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, öz üzərlərində işləyərək bilik və təcrübələrini daim artırmalarını, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

Nazir əmin olduğunu bildirib ki, gənc zabitlər bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda, Vətənə sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.

**AZƏRTAC**

# Şəkidə baş vermiş hadisə və xəsarət alan şəxslərin müalicəsi Azərbaycan Prezidentinin xüsusi nəzarətindədir

**Respublika Baş Prokurorluğunun və Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətləri Şəki Xan Sarayının qarşısında baş vermiş hadisə ilə bağlı birgə məlumat yayıb.**

AZƏRTAC xəbər verir ki, məlumatda iyulun 14-də saat 12 radələrində Şəki Xan Sarayı ərazisində 1530-cu ilə aid ağacın təxminən 50 santimetr diametrində olan budağının qəflətən qırılaraq həmin vaxt sarayın həyətində olan turistlərin üzərinə düşdüyü bildirilir. Qeyd edilir ki, nəticədə 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq təcili olaraq Şəki Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Onlara ilkin təcili-tibbi yardım göstərilib. Dörd nəfərin səhhəti ağır olduğundan onlar reanimasiya şöbəsinə yerləşdirilib.

Bakı şəhərindən FHN-in helikopterləri vasitəsilə Səhiyyə Nazirliyinin təcrübəli reanimatoloq, neyrocərrah, travmatoloq və digər həkimləri Şəki rayonuna göndərilib. Eyni zamanda, baş vermiş hadisənin səbəblərinin müəyyənləşdirilməsi məqsədilə Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Turizm Agentliyinin və Baş Prokurorluğun məsul şəxsləri Şəki şəhərinə ezam olunublar.

Hadisə ilə əlaqədar Baş Prokurorluğun 492 55 40, FHN-in 112 və Səhiyyə Nazirliyinin 498 78 46 saylı qaynar xətt əlaqə mərkəzləri yaradılıb.

Baş vermiş hadisə və xəsarət alan şəxslərin müalicəsi dövlətimizin başçısının xüsusi nəzarətindədir.

**AZƏRTAC**

# Gürcüstanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılıb

**İyulun 14-də Gürcüstandan olan bir qrup şəxsin Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozaraq Azərbaycan ərazisində yerləşən Keşikçidağ mağaralar kompleksi yaxınlığında xidmət aparan sərhəd naryadına hücum etməsi və onları nalayiq ifadələrlə təhqir etməsi ilə bağlı Gürcüstanın ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə çağırılıb və məsələ ilə bağlı müvafiq izahat istənilib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

"Təəssüf hissi ilə qeyd edirik ki, bu cür hərəkətlərə yol verilməsi Azərbaycan və Gürcüstan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin ruhuna tamamilə ziddir və bunu iki ölkə arasında qarşıdurmaya yönəlmiş təxribat kimi qiymətləndiririk", - deyə nazirliyin məlumatında bildirilir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu insidentin araşdırılaraq müvafiq tədbirlərin görülməsini və görülmüş işlərə dair nazirliyin məlumatlandırılmasını qarşı tərəfdən tələb edib.

**AZƏRTAC**

# Azərbaycan-BMT əməkdaşlığı: tarix və müasirliyin vəhdətində

**(əvvəli 1-ci səhifədə)**

Əlamətdardır ki, İlham Əliyev Azərbaycan Respublikasının Baş Naziri statusunda BMT Baş Məclisinin 58-ci sessiyasında çıxışı zamanı BMT TŞ-də islahatların aparılması zərurətindən bəhs edib. Bu, Ulu Öndərin BMT-də islahatların həyata keçirilməsi və TŞ-nin fəaliyyətinin daha da səmərələşdirilməsi haqqında ifadə etdiyi fikirlərin davamı idi. Yəni Azərbaycan rəhbərliyi BMT ilə münasibətlərdə həmişə məntiqi, ardıcıl, sistemli və perspektivə hesablanmış mövqe nümayiş etdirib. Bu xəttin olduqca səmərəli olduğunu təcrübə tam təsdiq edib və etməkdədir. Bu baxımdan Prezident İlham Əliyevin 2004-cü ilin sentyabrında BMT Baş Məclisinin 59-cu sessiyasında TŞ-də islahatlarla bağlı irəli sürdüyü təkliflər Azərbaycanın bu beynəlxalq təşkilatla münasibətlərinə konkret çalarlar gətirib. İlham Əliyev yeniləşmiş TŞ-nin üç əsas əlamətinin olmasının vacibliyini vurğulayıb. Tərkibi genişlənmiş TŞ məsuliyyətli, demokratik və iş metodları şəffaf olmalıdır. İslahatlar aparılmış TŞ-də "XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verilməlidir".

Sözsüz ki, Azərbaycan-BMT münasibətlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı atılan addımlar xüsusi yer tutur. Bu məsələ BMT-nin gündəmində ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra tam şəkildə öz əksini tapıb. Ulu Öndər və Prezident İlham Əliyev həmişə onu fəal olaraq BMT-nin gündəminə gətiriblər. Bu baxımdan Azərbaycan tərəfinin təkidi ilə BMT Baş Məclisinin 29 oktyabr 2004-cü il tarixli sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələnin sessiyanın gündəliyinə salınması tarixi hadisə idi. Bu əsasda BMT-də Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətə dair qətnamələr qəbul edildi. Bu sənədlərdə həm Ermənistanın işğalçılıq siyasəti vurğulanıb, həm də Azərbaycanın ərazi bütövlüyünün bərpası zərurəti öz əksini tapıb.

Ekspertlərin yekdil rəyinə görə, Azərbaycan-BMT münasibətlərində Azərbaycan Respublikasının 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinin xüsusi yeri vardır. Azərbaycan seçkilərdə əvvəl Macarıstan, sonra isə Sloveniya üzərində şərtsiz üstünlük qazanaraq qələbə üçün tələb olunan 129 səsdən də çox - 155 səs əldə edərək buna nail olub. Əlbəttə, BMT kimi bir təşkilatda belə böyük uğura nail olmaq bütövlükdə Azərbaycanın bu beynəlxalq təşkilatla münasibətlərini əsaslı şəkildə qurmasını təsdiqləyən ciddi faktorlardandır.

Bütün bunların fonunda Azərbaycanın BMT ilə münasibətlərinin yeni dinamika alması böyük maraq kəsb edir. Dünyada mürəkkəb, qeyri-müəyyən, risk və təhdidlərlə dolu proseslərin vüsət aldığı bir zamanda Azərbaycan-BMT münasibətlərinin yüksələn xətlə inkişaf etməsi Bakının çox uğurlu əməkdaşlıq kursu seçdiyinə dəlalət edir. Deyək ki, 2015-ci ildə BMT-nin sammitində 2030-cu ilə qədər qlobal inkişafın hədəfləri müəyyən edildi. O, 17 davamlı inkişaf məqsədi üzrə 169 hədəfdən ibarət idi. Azərbaycan bu proqramın reallaşması istiqamətində BMT ilə fəal əməkdaşlıq edir. Buraya təhsil, ətraf mühit və ərzaq təminatı kimi vacib məsələlər daxildir.

Bu gün də Azərbaycan-BMT münasibətləri yüksələn xətt üzrə inkişaf etməkdədir. 2019-cu il iyunun 24-26-da Bakıda BMT və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə BMT-nin Dövlət Xidmətləri Forumu keçirildi. Tədbirdə dünyanın 190 ölkəsindən 800-dən artıq nümayəndə iştirak etdi. Müzakirə mövzusunun aktuallığı və iştirakçıların sayı onu göstərir ki, Azərbaycan bütün aspektlərdə mükəmməl olaraq BMT ilə bağlı proqramları reallaşdırmağa qadirdir.

BMT-nin Dövlət Xidmətləri Forumlarında dövlət xidmətlərinin aktual problemləri müzakirə edilir. O cümlədən həmin sahədə innovasiyalar və texnologiyaların tətbiqi imkanları ilə bağlı fikir mübadiləsi aparılır. Forum dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün beynəlxalq platforma kimi qəbul edilir. Bu tədbir çərçivəsində dövlət xidmətləri sahəsində dünya üzrə ən qabaqcıl və innovativ modellər müəyyən edilir.

Yuxarıdakı təhlildən görünür ki, dövlət xidmətləri ilə bağlı təşkil edilən forumlar müasirliyin ciddi problemlərini müzakirə etməyə imkan verir. Əlbəttə, belə bir tədbiri keçirmək üçün BMT üzvü olan ölkə həmin sahədə uğur qazanmalıdır. Azərbaycanda belə bir təcrübə mövcuddur. "ASAN" və "DOST" xidmətlər buna gözəl nümunədirlər.

Bu məsələnin vətəndaş-hökumət münasibətlərinin yeni keyfiyyət mərhələsinə yüksəlməsinə və idarəetmədə şəffaflığın daha da artmasına müsbət təsiri inkaredilməzdir. Bunlar da öz növbəsində inklüziv, insanyönümlü və İKT əsaslı dövlət xidməti sisteminin formalaşdırılması üçün olduqca vacibdir. Yekun olaraq isə bu proseslər vətəndaş cəmiyyətinin formalaşdırılmasına xidmət edir. Deməli, Azərbaycan Cənubi Qafqazda yeganə müstəqil dövlətdir ki, dövlət xidmətləri sferasında BMT-nin qoyduğu tələblər səviyyəsində sistem yarada bilib. Və bu nailiyyət Azərbaycan-BMT münasibətlərinin müasir mərhələsində əhəmiyyətli elementlərdən birinə çevrilib.

Bu nöqteyi-nəzərdən Forumun açılışında çıxış edən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, səmərəli dövlət qulluğu sahəsində Azərbaycanda görülən işlərin əsas hədəf və məqsədi "yeni xidmətlərin insanlara yönəlməsindən və vətəndaşların keçmişdə üzləşdiyi çətinliklərin aradan qaldırılmasından, dövlət xidmətlərini insanlar üçün əlçatan, rahat, asan və səmərəli etməkdən ibarətdir". Həmin aspektdə də "Vahid pəncərə" prinsipi əsasında dövlət xidmətlərinin göstərilməsi ideyasının uğurlu olması aydın olur.

Forumdan bir neçə gün sonra, 2019-cu il iyun ayının 30-da yenə də BMT xətti ilə UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası Bakıda öz işinə başlayıb. Tədbir iyulun 9-dək davam edib. Bu hadisə də Azərbaycan-BMT münasibətlərinin indiki mərhələsinin yüksək dinamika ilə inkişaf etdiyini göstərir.

Maraqlıdır ki, Ümumdünya İrs Siyahısına 276 milyon hektardan çox ərazini əhatə edən 1000-dən çox abidə daxildir. Azərbaycandan Bakı şəhərinin tarixi mərkəzi olan İçərişəhər memarlıq kompleksi, Qobustan dövlət tarixi-bədii qoruğu, Şəki şəhərinin tarixi hissəsi və Şəki Xan Sarayı Ümumdünya İrs Siyahısına daxil edilib. Hazırda Hirkan Milli Parkının və Naxçıvandakı türbələrin də bu siyahıya salınması ilə əlaqədar intensiv iş aparılır.

Bunlar uzun illərdir ki, Azərbaycanla UNESKO arasında çox çevik əlaqələrin fonunda uğurla yerinə yetirilmiş proqramların davamıdır. Elm, təhsil və mədəniyyət sferalarında Azərbaycanla BMT arasında əlaqələrin daha da inkişaf etdirilməsi bütövlükdə dövlət quruculuğu kontekstində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəlməsinə təkan verə bilər. Bu istiqamətdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri misilsizdir.

Beləliklə, ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycan-BMT münasibətlərinin əsasları tam düşünülmüş şəkildə və müasir tələblər səviyyəsində qoyulub. Bu istiqamətdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın reallaşdırdıqları proqramlar Azərbaycanla BMT arasında münasibətlərin daha da inkişaf etməsinə ciddi töhfə verir. Şübhə yoxdur ki, həmin proses daha da inkişaf etdiriləcək.

### Xülasə

Müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla səmərəli əlaqələr qurması çox aktual vəzifələrdən biri oldu. Ancaq bu istiqamətdə real uğurlar yalnız ümummilli lider Heydər Əliyevin xalqın tələbi və təkidi ilə yenidən hakimiyyətə qayıdışından sonra özünü göstərməyə başladı. Məqalədə bu tezis əsasında 27 il ərzində Azərbaycan-BMT münasibətlərinin inkişaf dinamikası təhlil edilir. Göstərilir ki, Heydər Əliyevin müəyyən etdiyi əməkdaşlıq kursu böyük nailiyyətlər əldə etməyə imkan verib. Hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycan-BMT münasibətlərinə yeni töhfələr verirlər. Həmin bağlılıqda bu il Bakıda keçirilən iki tədbirin bu münasibətlərə gətirdiyi yeni çalarlar analiz edilir və bu kontekstdə Azərbaycan-BMT münasibətlərinin perspektivi ilə bağlı tezis irəli sürülür.

**Leyla MƏMMƏDƏLİYEVA,**
**Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun doktorantı.**

# Səudiyyə Ərəbistanı ilə ədliyyə sahəsində Əməkdaşlıq Proqramı imzalanıb





**Səudiyyə Ərəbistanı Krallığı ilə ikitərəfli münasibətlərin inkişafında hüquqi əlaqələrə böyük əhəmiyyət verilir, qarşılıqlı səfərlər həyata keçirilir. Cari ilin əvvəlində Azərbaycanın Ədliyyə naziri Fikrət Məmmədovun Səudiyyə Ərəbistanına səfəri zamanı iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Həmin sənəd Azərbaycan Prezidentinin 2019-cu il 12 mart tarixli Fərmanı ilə təsdiq olunub. Bütün bunlar hüquqi sahədə qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə təkan verib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın məhkəmə-hüquq sistemi və aparılan islahatlarla tanış olmaq məqsədilə Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Dr. Valid bin Mohammad Al-Samaani geniş tərkibli nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlib.

İyulun 15-də iki ölkənin Ədliyyə nazirlərinin görüşü keçirilib.

Görüşdə ölkələrimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin inkişafına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun böyük önəm verdikləri vurğulanıb, əlaqələrimizin müxtəlif istiqamətlərdə genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib. İki ölkə arasında turist axınının yüksəlməsinin ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyi qeyd olunub.

Nazir F.Məmmədov Səudiyyə Ərəbistanına məhsuldar səfərini və nümayəndə heyətimizə böyük şərəf verilərək İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı tərəfindən qəbulunu böyük məmnunluqla xatırladıb, nazirliklər arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin inkişafına xidmət etdiyini vurğulayıb.

Dövlətimizin başçısının rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan genişmiqyaslı islahatlar və yeniliklər, xüsusilə bu sahədə yeni mərhələ olan Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı barədə məlumat verilib.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış və Azərbaycan brendi olan, ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət"in səmərəli fəaliyyəti qeyd olunub. Bildirilib ki, "ASAN xidmət" BMT-nin dövlət xidmətləri sahəsində xüsusi mükafatına layiq görülüb və artıq digər dövlətlər onu nümunəvi model kimi tətbiq edirlər. Səfər zamanı "ASAN xidmət" mərkəzlərinə baş çəkilərək onun fəaliyyəti ilə yaxından tanışlıq nəzərdə tutulur.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Səudiyyə Ərəbistanının naziri respublikamızın hərtərəfli tərəqqisinin şahidi olduğunu vurğulayıb, səmimi qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını ifadə edib. Bildirib ki, iki ölkənin Ədliyyə nazirlikləri arasında Anlaşma Memorandumunun bağlanması, hazırkı səfər və Əməkdaşlıq Proqramının imzalanması İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralının Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə verdiyi əhəmiyyətin təzahürüdür.

Qonaq əlaqələrimizi bütün sahələrdə olduğu kimi, ədliyyə sahəsində də inkişaf etdirmək niyyətində olduğunu və bunun üçün səylərini əsirgəməyəcəyini bildirib. O, Azərbaycanın ədliyyə və məhkəmə sahəsindəki yeniliklərinə böyük maraq göstərib, bu sahədə ölkəsində də islahatların reallaşdırıldığını bildirərək təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətini qeyd edib.

Söhbət zamanı, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri diqqətə çatdırılıb, Səudiyyə Ərəbistanı Krallığının münaqişənin həlli ilə bağlı ədalətli və prinsipial mövqe nümayiş etdirərək ölkəmizin haqlı mövqeyini dəstəklədiyi vurğulanıb. Qonaq bildirib ki, Səudiyyə Ərəbistanı Krallığının ölkəmizə münasibətdə mövqeyi dəyişməzdir və daim Azərbaycanın yanındadır.

Sonra nazirliklərarası Anlaşma Memorandumunun həyata keçirilməsi üzrə praktiki sənəd olan Əməkdaşlıq Proqramı imzalanıb. Sənəddə birgə tədbirlərin, o cümlədən ədliyyə və məhkəmə sistemləri ilə tanışlıq məqsədilə qarşılıqlı səfərlərin təşkili, qabaqcıl beynəlxalq təcrübələr üzrə məsləhətləşmələrin aparılması, ədliyyə sahəsindəki yeniliklər üzrə məlumat mübadiləsi, ədliyyə işçiləri və hakimlərin tədrisi üzrə videokonfransların və təlim səfərlərinin təşkili nəzərdə tutulur. Sənədin ekspertlər səviyyəsində də münasibətlərin genişləndirilməsinə xidmət edəcəyi bildirilib.

Səudiyyə Ərəbistanının Ədliyyə nazirinin ölkəmizin ədliyyə sahəsindəki innovasiyalara böyük marağı nəzərə alınaraq görüşdə səyyar notariat xidmətlərini istənilən yerdə aparmağa, sənədləri çapdan çıxarmağa və təqdim etməyə imkan verən ərəbdilli proqram təminatı ilə təchiz olunmuş xüsusi elektron notariat çantası nümayiş etdirilərək qonaqlara təqdim olunub. Azərbaycanın innovativ məhsulu təqdirəlayiq hesab olunaraq ondan faydalanılacağı bildirilib.

Söhbət zamanı Azərbaycanın Şəki Xan Sarayı və Şəkinin tarixi mərkəzinin yenicə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi haqqında məlumat verilib. Həmçinin həmin siyahıya daxil olan Birinci Səudi Dövlətinin paytaxtı, memarlıq sənətinin gözəl nümunəsi sayılan qədim Diriiyyə şəhəri haqqında azərbaycanlı müəllifin "Diriiyyə - açıq səma altında muzey" kitabının Əlahəzrət Səudiyyə Ərəbistanı Kralının nümayəndə heyətimiz səfərdə olarkən xeyir-duası və ölkəmizin Ədliyyə Nazirliyinin dəstəyi ilə ərəb dilinə tərcümə olunaraq nəfis şəkildə nəşr edilmiş nüsxəsi Səudiyyə Ərəbistanı tərəfinə təqdim edilib.

Nazir Dr. Valid bin Mohammad Al-Samaani kitabın ərsəyə gəlməsinə görə təşəkkürünü bildirərək, belə bir dəyərli nəşrin xalqlarımız arasında qardaşlıq münasibətlərinin əyani təzahürü olduğunu vurğulayıb.

Tədbirdə Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyr və ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev iştirak ediblər.

Nümayəndə heyəti nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Həmin gün qonaqların nazirliyin müxtəlif reyestrləri, elektron sistemləri və digər informasiya resursları ilə tanışlığı olub. Azərbaycan ixtirası olan, vətəndaşlara səyyar və məsafədən xidmətlər göstərən elektron ədliyyə köşkü və "Mobil notariat" proqram təminatı barədə təqdimat keçirilib.

Qonaqlar ədliyyə sahəsində innovasiyaları maraqla qarşılayıb, ölkəmizin nailiyyətlərini təqdir ediblər.

Nümayəndə heyəti, həmçinin Yasamal Rayon Məhkəməsinə baş çəkərək müasir infrastrukturla və "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə tanış olublar.

Səfər çərçivəsində qonaqların Konstitusiya Məhkəməsində və Ali Məhkəmədə, Baş Prokurorluqda rəsmi görüşləri, habelə paytaxtın tarixi və mədəni abidələri, o cümlədən Bakının müasir rəmzlərindən sayılan Heydər Əliyev Mərkəzi ilə tanışlığı nəzərdə tutulur.

**AZƏRTAC**

## Pakistan Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da inkişafında maraqlıdır

**Mədəniyyət naziri Əbülfəs Qarayev Pakistan İslam Respublikasının Gilgit-Baltistan əyalətinin Baş Naziri Hafiz ur Rəhmanla görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Əbülfəs Qarayev qonağı səmimiyyətlə salamlayaraq ölkəmizin zəngin mədəniyyəti haqqında söz açıb. Bildirib ki, son illər ölkəmizdə mədəniyyət sahəsinin inkişafı, mədəni irsin qorunması və bu istiqamətdə beynəlxalq əlaqələrin inkişafına xüsusi önəm verilir.

Nazir bu günlərdə UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasının ölkəmizdə uğurla keçirildiyini və Pakistan nümayəndə heyətinin də sessiyada fəal iştirak etdiyini diqqətə çatdırıb. Əbülfəs Qarayev sessiyada, həmçinin Pakistanın Lahor şəhərindəki tarixi abidələrin qorunması üçün mühüm qərarın qəbul edildiyini deyib.

İki ölkə arasındakı münasibətlərə toxunan nazir Azərbaycan və Pakistan xalqları arasındakı mövcud olan dostluq, qardaşlıq əlaqələrindən danışıb. Ölkələrimizin bir-birini bütün beynəlxalq təşkilatlarda daim dəstəklədikləri vurğulanıb.

Qonaq Pakistanın Gilgit-Baltistan əyalətinin tarixi, mədəni həyatı və turizm potensialı haqqında geniş məlumat verib. Hafiz ur Rəhman Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da inkişafında maraqlı olduqlarını diqqətə çatdırıb. O, Pakistan ilə Azərbaycan arasında səmimi dostluq və qardaşlıq əlaqələrinin olduğunu vurğulayaraq qarşılıqlı səfərlərin, görüşlərin bu münasibətlərin daha da inkişafına təkan verdiyini deyib.

Görüşdə ümumi maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Mədəniyyət kollektivlərinin qarşılıqlı səfərlərinin təşkilinin, birgə mədəni tədbirlərin keçirilməsinin vacibliyi vurğulanıb.

**AZƏRTAC**

## Dövlət Sərhəd Xidməti mətbuat mərkəzinin məlumatı

14 iyul 2019-cu il tarixdə saat 14:50 radələrində DSX-nin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin "Keşikçi qala" sərhəd zastavasının xidməti ərazisində Gürcüstan vətəndaşları tərəfindən Azərbaycan sərhəd naryadına qarşı insident törədilmişdir.

Hadisə ilə əlaqədar təxirəsalınmaz tədbirlər görülməklə insident qısa müddət ərzində aradan qaldırılmış və DSX-nin şəxsi heyəti tərəfindən ərazidə təhlükəsizlik tədbirləri təmin edilmişdir.

Azərbaycan və Gürcüstan sərhəd nümayəndələri arasında görüş keçirilmiş, baş vermiş hadisə birgə araşdırılmış, gələcəkdə bu kimi hallara yol verilməməsi üçün görülməli olan tədbirlər müzakirə edilmişdir.

## Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə konsert təşkil edilib

**İyulun 14-də Heydər Əliyev Mərkəzinin parkında ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə konsert təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, konsert proqramında Xalq artistləri Zülfiyyə Xanbabayeva, Samir Cəfərov, Mənsum İbrahimov, Ağadadaş Ağayev, Gülyaz və Gülyanaq Məmmədovalar, İlqar Muradov, Mələkxanım Əyyubova, Əməkdar artistlər Fərqanə Qasımova, Aygün Bəylər, Sevda Ələkbərzadə, Ədalət Şükürov, tanınmış ifaçılar Samirə Allahverdiyeva, Sevda Yəhyayeva, Günay İbrahimli, Ərəstun Quliyev, həmçinin "Mirvari" rəqs ansamblı çıxış edib.

Sənətçilərin səsləndirdikləri mahnı və kompozisiyalar paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının alqışları ilə qarşılanıb.

**AZƏRTAC**

## Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Kannda Azərbaycan mədəniyyəti günləri başlayıb

**Heydər Əliyev Fondunun, Fransadakı səfirliyimizin və Kann şəhər meriyasının təşkilatçılığı ilə dünya şəhəri adlandırılan Kannda Azərbaycan mədəniyyəti günləri başlayıb.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun Kann Festivallar və Konqreslər Sarayı yaxınlığındakı "Dəniz Vağzalı" (Gare maritime) sərgi pavilyonunda "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı xalça sərgisinin açılışı olub.

Sərginin açılışında Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Kann şəhər merinin müavini Frank Şıkli çıxış ediblər.

Anar Ələkbərov Heydər Əliyev Fondunun fəaliyyəti və həyata keçirdiyi layihələr haqqında məlumat verib. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mədəniyyətimizin dünyada tanıdılması istiqamətində verdiyi töhfələrdən danışıb. O, Fondun müxtəlif ölkələrdə, eləcə də Fransada həyata keçirdiyi irimiqyaslı humanitar, sosial layihələrdən və tarixi abidələrin restavrasiyasına verdiyi töhfələrdən söz açıb. İcraçı direktor Azərbaycan xalçaçılıq məktəbinə, onun tarixinə toxunaraq bu sərginin böyük əhəmiyyət daşıdığını qeyd edib.



"Bir neçə gün əvvəl Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirildi. Sessiyada ölkəmiz üçün çox mühüm bir qərar qəbul edildi. Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi. Bu gün Kann şəhərində təqdim edilən sərgidə də məhz Şəki xalçaçılıq məktəbi təqdim olunur. Fondun iki ildən çox müddətdəki zəhmətinin bəhrəsi olan bu sərgidə Xalq rəssamı Eldar Mikayılzadənin Azərbaycan xalçalarının Şəki qrupundan olan 13 xalça və xalça eskizləri nümayiş olunur", - deyə A.Ələkbərov vurğulayıb. O, sərginin ərsəyə gəlməsində əməyi olan hər kəsə, o cümlədən sərgilənən xalçaları ərsəyə gətirən toxuculara, Kann şəhər meriyasının əməkdaşlarına təşəkkürünü bildirib.

Kannda artıq ənənəyə çevrilmiş Azərbaycan mədəniyyəti günlərinin əhəmiyyətinə toxunan Frank Şıkli bildirib ki, mədəniyyət xəzinəmizin yaxından tanınmasını təşviq edən belə layihələr hər iki xalqın daha da yaxınlaşmasına, ikitərəfli münasibətlərin zənginləşməsinə töhfə verir. O, ölkəmizdə qədim köklərə malik ənənəmizin qorunub saxlanılmasına göstərilən qayğı və diqqətin şahidi olduğunu bildirib. Frank Şıkli Bakının ənənə və innovasiyaların vəhdəti olduğunu vurğulayıb.

Qeyd edək ki, "Dəniz vağzalı" pavilyonunda təşkil edilmiş "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgidə xalçaçı-rəssam, Xalq rəssamı Eldar Mikayılzadənin Şəki qrupuna aid 13 xalça eskizi, onların əsasında toxunan xalçalar və texniki rəsmlər nümayiş etdirilir. E.Mikayılzadə yeni Şəki qrupuna aid xalça eskizlərində Şəki Xan Sarayı və Şəkixanovlar evindəki divar rəsmlərinə, şəbəkələrə müraciət edib.

Avqustun 18-dək davam edəcək sərgi çərçivəsində bu layihəyə həsr edilmiş fransız və ingilis dillərində kataloq ziyarətçilərə təqdim olunacaq. Sərgiyə baxmağa gələn Kann şəhərinin sakinləri və turistləri layihənin hazırlanmasına dair sənədli filmlə də tanış ola biləcəklər.

**AZƏRTAC**



# Bakı, sabahın xeyir!..



# SURAXANI RAYONU









**Uca Yaradan canlıların alisi olan İnsana yaradılışından əsrarəngiz bir həyat bəxş edib. Tanrının nəsib etdiklərinə - könülün məhbubu Vətənə, onun təbiətinə, daşına, torpağına, sevdiklərinə, bir də haqqa, ədalətə tapınaraq yaşamaq böyük səadətdir. Bu, həm də İnsanın xalq qarşısında ən ümdə borcu, ömür yollarında daşıyacağı vəzifəsidir. Bu vəzifəni öhdəsinə alan, yaşam boyu fərqində olduğu dünyanın sirrini, fəlsəfəsini dərk edən insan üçün həyat özünün təzadları ilə hər zaman maraqlı və cazibədardır. Elə bu işıqlı dünyada var olmağın məna-məqsədi, gözəlliyi, sirri, fəlsəfəsi də budur. Amma həyat onunla ayaqlaşmayanı, onu duymayanı, sevməyəni sanki özündən ayıraraq boşluğa, heçliyə atır, dənizlərə, dəryalara qərq edir, sıx meşəliklərdə azdırır. Adam yolunu-rizini itirir, belə bir şəraitdə onun üçün hər şey maraqsız olur... Əslində həyat qurub-yaradanlara, yaratdıqlarını yaşadanlara meydan verir, qucaq açır. Adil Allah da doğma yurdunun, məskəninin təəssübünü çəkən, qədrini bilən, torpağını gülzarlığa çevirən, bu gözəlliyin keşiyində mərdanə dayananların mərtəbəsini hər zaman ucada qurur. Bunlar böyük mənada insan oğlunun xalqına xidmətidir. Elə Vətən və xalq üçün yaşamaq, belə bir əzəmətə, ehtirama, layiq olmaq da Tanrının sevib-seçdiklərinə bəxş etdiyi mükafatı, ən uca məqamıdır. Yetər ki, insan bəsirətli olsun...**

Bu fikirlərin işığında, üzümüzə açılan əsrarəngiz bir sabahda Bakımızın qədim, həm də möhtəşəm qanadı olan Suraxanı rayonunun gözəlliyi və rahatlığı ilə göz oxşayan hüsnünün seyrinə çıxmışam. Bu yerlərin 30-40 il əvvəlki həyatının yerlə göy qədər fərqli olan növrağına məftun oldum... Əslində bu, altı həftədən bəri qəzetimizin həyata keçirdiyi və bu gün də davam edən layihənin yaratdığı imkandır. Mən də bu fürsətdən yararlanmaq fikrindəyəm. Məqsədim bu məkanı da yaxından tanımaq, onun həyatı ilə bağlı eşidib-bildiklərimi, gördüklərimi yurddaşlarımla bölüşməkdir. Əvvəlki yazılarımızda olduğu kimi, burada da rayonun daşıdığı adların mənasına varmağı, bununla bağlı tədqiqat əsərlərindən əxz etdiklərimizi açıqlamaq da yerinə düşür. Yəqin ki, bu sətirləri oxuyanların da fikrində dərhal belə bir sual yaranır: Suraxanı sözünün mənşəyi haradan götürülüb? Bu sualın ən dəqiq cavabını da görkəmli tarixçi alim Sara xanım Aşurbəylinin apardığı tədqiqatlardan öyrənirik. Sara xanım Aşurbəyli yazır ki, "Suraxanı oyuqdan, deşikdən qaynayıb daşan, fəvvarə vuran deməkdir." Elə bu fikir də onun qədimiliyinə dəlalət edir. Onun haqqında qədim məkan dedikdə, ilk növbədə yadımıza bu yerin ən möhtəşəm abidəsi olan "Atəşgah" məbədgahı düşür. XVII-XVIII əsrlərdə qədim atəşpərəstlər məbədinin qalıqları üzərində, təbii qazın çıxdığı əbədi məşəlin yerində inşa edilmiş bu Od məbədi 26 hücrədən və mərkəzi səcdəgahdan ibarətdir. Yeri gəlmişkən onu da xatırladaq ki, "Atəşgah" məbədi 19 dekabr 2007-ci ilə qədər "Şirvanşahlar sarayı Kompleksi" Dövlət tarixi-memarlıq qoruq muzeyinin filialı kimi fəaliyyət göstərmişdir. Atəşgah məbədinin özünəməxsusluğu, unikallığı və UNESCO-nun Dünya İrsinin ilkin siyahısına daxil edilməsi "Atəşgah məbədi" abidəsinin müstəqil fəaliyyətinə və mühafizəsinə zərurət yaratmışdır. Bu səbəbdən və eyni zamanda burada turizmin inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2007-ci il tarixli Sərəncamı ilə Atəşgah məbədinin ərazisi Azərbaycan Respublikasının "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğu elan edilmişdir...

"Atəşgah"la bağlı maraqlı və unudulmaz bir məqam: 2015-ci il aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində əlamətdar hadisə baş vermiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda I Avropa Oyunlarının məşəlini alovlandırmış, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki bu möhtəşəm mərasimdə iştirak etmişlər...

Unutmamış onu da xatırladım ki, rayonun yüzilliklərə malik olduğu mədəni həyatının bir göstəricisi də budur ki, Suraxanı ərazisində 1880-ci ildən etibarən çəkilmiş dəmir yolu xətti hal-hazırda da fəaliyyət göstərir...

Bakının inzibati rayonlarından olan Suraxanı rayonuna daxil olan Bülbülə, Əmircan, Qaraçuxur, Yeni Günəşli, Yeni Suraxanı, Hövsan, Zığ qəsəbələri və Dədə Qorqud yaşayış sahəsi də hər biri ayrılıqda qədim tarixə malikdir. Bu da ən çox özünü onların fərqli və diqqətəlayiq olan həyat tərzi və bir sıra xüsusiyyətlərində göstərir. Sovetlərin qatı rejiminin hökm sürdüyü bir vaxtda bir çox məkanlarımıza verilən yad, qondarma adlar kimi bu əraziyə də xalqın iradəsi əleyhinə olaraq, Orconikidze adı verilmişdi. Bununla həmin adı yaddaşımıza həkk etmək istəmişlər. Belə ki, 3 noyabr 1934-cü ildə yaradılan bu rayon (digər bir mənbədə isə rayonun yaradılması 1920-ci ilin may ayı qeyd olunmuşdur) 1990-cı ilə qədər bu adla tanınıb. Şükürlər olsun ki, 18 aprel 1990-cı ildən bu ad ləğv olunmuş, həmin ərazi Azərbaycan Respublikası Ali Sovetinin Qərarı ilə Suraxanı rayonu adlanıb.

Bəllidir ki, hər bir yer, məkan toponimi, coğrafi mövqeyi ilə də özünəməxsusluq təşkil edir. Bu mənada Suraxanı rayonunun yerləşdiyi ərazi də bir çox cəhətləri, fərqli olması ilə diqqəti cəlb edir. Zənnimizcə, bu xüsusiyyətləri bu rayonda yaşayan və yolu həmin ərazidən düşənlər görüb-hiss edirlər. Burda ən önəmli, vacib olan amillər bundan ibarətdir ki, rayonun bütün sahələrinin, o cümlədən mədəniyyət, iqtisadiyyat, təhsil, idman, istirahət obyektlərinin və digər sahələrin əsaslı şəkildə yenidən qurulması əhalinin hərtərəfli inkişafına özünün böyük təsirini göstərmişdir.

Oxşarlıq və eyniyyət təşkil edən cəhətlər isə burda da insanların yaşaması və fəaliyyət göstərməsindən ötrü inzibati sahələrin olmasıdır. Belə ki, sənaye müəssisələrinin, məktəblərin, məktəbəqədər tərbiyə müəssisələrinin, uşaq evinin, internat məktəbinin, istirahət parklarının, mədəniyyət sarayları və evlərinin, kitabxanalar, məscidlər, QHT və ictimai birliklər, səhiyyə müəssisələri və digər sahələrin ərazidə yaşayan əhalinin tələbatına uyğun şəkildə olması, fəaliyyət göstərməsi bir zərurətdir, həyatın bütün məqamları da məhz belə bir yaşayış tərzindən, nizamdan keçir. Və bunlar məskunlara həmişə diqqət göstərilməsi, fəaliyyətlərinin günü-gündən yaxşılaşması, xalqın tələbatının ödənilməsi, tənzimlənməsi ilə əlaqədardır. Onu da xüsusi olaraq qeyd etməliyik ki, Suraxanı rayonunda 21368 nəfər məcburi köçkünün yerləşməsi, dövlətin, rayon rəhbərliyinin diqqəti, qayğısı sayəsində rahat yaşaması və fəaliyyət göstərməsi təqdirəlayiqdir. Bu rayonda olduğum və gördüyüm yerlərdə diqqətimi cəlb edən, gözümü oxşayan və məndə heyrətamizlik yaradan bir cəhət də evlərdə, küçələrdə, parklarda, həyətlərdə, inzibati binalarda, xülasə, bütün ərazidə aparılan səliqə-sahman, abadlıq işləri, yeni tikililər oldu. Özü də bu layihələr bütünlükdə ərazini əhatə etmiş, görülən işlər heç bir məkan, guşə unudulmadan davam etdirilir. Təbii ki, bunlar da uşaqlı-böyüklü bütün əhalidə rahat yaşamaq və işləmək üçün yeni həvəs və maraq oyadır. Ərazidə rayon İcra Hakimiyyətinin bilavasitə rəhbərliyi altında daim yeni layihələr həyata keçirilir. Burada əldə etdiyimiz məlumatlara istinadən bəzi məsələləri də diqqətə çatdırmağı zəruri hesab edirəm. Rayonda ekoloji məsələlərin həllinə diqqət artırılmış, gölməçələr müxtəlif növ tullantılardan təmizlənmiş, lay suları və neftlə çirklənmiş 9,8 hektar torpaq sahəsi təmizlənərək rekultivasiya olunmuş, 33 ədəd quyunun işçi meydançası və quyuətrafı sahələri neft tullantılarından təmizlənmiş və həmin ərazilərdə qazon və ağaclar əkilmişdir. Rayonda İcra Hakimiyyətinin təşkilatçılığı ilə vaxtaşırı iməciliklər keçirilir və indiyədək də ərazidə 5282 ədəd ağac əkilmişdir. Prezident cənab İlham Əliyevin digər regionlarda olduğu kimi, Suraxanı rayonuna, onun əhalisinə göstərdiyi qayğı, burada aparılan quruculuq işləri ilə tanışlığı və bunları nəzarətdə saxlaması, Onun rayona maddi və mənəvi dəstəyi əhali tərəfindən həmişə böyük rəğbətlə qarşılanır. Suraxanı rayonunun gündən-günə inkişaf etməsi, gözəlləşməsi heç şübhəsiz, əhalisinin də zəhmətsevər, torpağına bağlı olması ilə əlaqədardır. İnsan əllərinin dəydiyi yerlər isə həmişə gülzarlıq içində olur. Sabahınız xeyir olsun, əziz suraxanlılar...

*Daha bir xoş gündə görüşmək ümidilə:*

**Şəfəq NASİR,**
**"Respublika".**











*Baş Prokurorluq:*

## Şəki Xan Sarayının həyətindəki ağacın budaqlarının qırılmasına əlverişsiz hava şəraiti səbəb olub

**İyulun 15-də Azərbaycan Respublikasının Baş Prokurorluğu ötən gün Şəki Xan Sarayının ərazisindəki ağacın budaqlarının qırılması nəticəsində çoxlu sayda insanın xəsarət alması ilə bağlı yeni məlumat yayıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, iyulun 14-də saat 12 radələrində Şəki Xan Sarayının ərazisində ağacın budaqlarının qəflətən qırılaraq insanların üzərinə düşməsi nəticəsində 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq dərhal Şəki Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onlardan 13 nəfərə ilkin tibbi yardım göstərilərək evə buraxılıb. Digər 2 nəfərin Şəki Rayon Mərkəzi Xəstəxanasında, 4 nəfərin isə Bakıdakı Mərkəzi Klinik Xəstəxanada yüksəkixtisaslı mütəxəssislərin cəlb olunması ilə intensiv müalicələri davam etdirilir.

Baş vermiş hadisə ilə əlaqədar rayon prokurorluğunun əməkdaşları, eləcə də aidiyyəti nazirliklərin mütəxəssisləri dərhal həmin ünvana gedərək, ilk növbədə, xəsarət alan şəxslər təcili-tibbi yardım maşınları ilə xəstəxanaya çatdırılıblar. Hadisə yerinə baxış keçirilib, qırılmış budaqlardan nümunələr, habelə digər əhəmiyyət kəsb edən maddi sübutlar və izlər götürülüb, mütəxəssislərin ilkin rəyləri alınıb.

Aparılmış ilkin araşdırmalarla müəyyən edilib ki, hündürlüyü 34 metr olan Xan çinarının 21 metr hündürlükdə yerləşən 0,5 metr diametrli budağı qəflətən qoparaq aşağıda - 17 metr hündürlükdə olan nisbətən kiçik diametrli budağı da qırıb, nəticədə hər iki budaq insanların üzərinə düşüb.

Mütəxəssislərin ilkin rəyinə əsasən, budaqların qırılmasına əlverişsiz hava şəraiti səbəb olub. Belə ki, iyulun 12-də başlayan və sürəti saniyədə 8-12 metr olan küləklə müşayiət olunan, xüsusilə iyulun 14-də səhər saatlarından başlayaraq 3 saat ərzində aylıq normanın 54 faizi miqdarında (32 mm) aramsız yağış yağıb.

İlkin müayinələrə əsasən müəyyən edilib ki, qırılmış əsas budaq sağlam olub, qurumağa və hansısa fiziki təsirlərə məruz qalmayıb. Həmin budaqlarda virus və ya bakterioloji proseslərin gedib-getməməsinin müəyyən edilməsi üçün budaqlardan nümunələr götürülərək bioloji tədqiqatın keçirilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri cəlb olunmaqla məhkəmə-bioloji və məhkəmə-trasoloji ekspertizaları təyin edilib. Ekspertizaların keçirilməsi Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə həvalə olunub.

Hazırda araşdırmalar davam etdirilir.

**AZƏRTAC**

## BİLDİRİŞ

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus 17 ədəd minik avtomobillərinin texniki servis və təmir xidmətlərinin satınalınması məqsədi ilə kotirovka sorğusu keçirilir.

İştirak etmək istəyənlər əsas şərtlər toplusunu aşağıdakı ünvandan əldə edə bilərlər:

**Ünvan:** Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.

**Əlavə məlumat üçün əlaqə telefonu:** (012) 425-62-18

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 18.07.2019-cu il saat 18:00.

Bağlı zərflər 19.07.2019-cu il tarixdə saat 1100-da iddiaçının özünün və ya etibarnaməsi əsasında onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi-12 ünvanında yerləşən "Aqrolizinq" ASC-nin konfrans zalında açılacaqdır.

**İdarə Heyəti.**

*Dövlət Turizm Agentliyi:*

## Şəki Xan Sarayının ərazisinə giriş bir müddət bağlı olacaq

**Dövlət Turizm Agentliyinin rəhbərliyinin qərarı ilə "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunda yerləşən Şəki Xan Sarayının ərazisinə giriş bir müddət bağlı olacaq.**

Agentlikdən AZƏRTAC-a bildirilib ki, müvafiq araşdırma və bərpa işlərdən sonra ictimaiyyətə əlavə məlumat veriləcək və sarayın ərazisi turistlərin üzünə açıq olacaq.

İyulun 14-də saat 12 radələrində Şəki Xan Sarayı ərazisində 1530-cu ilə aid ağacın təxminən 50 santimetr diametrində olan budağı qəflətən qırılaraq həmin vaxt sarayın həyətində olan turistlərin üzərinə düşüb.

Hadisədən zərər çəkmiş 13 nəfər ilkin tibbi yardımdan sonra evə buraxılıb, digər 6 nəfərin müalicəsi xəstəxanalarda davam etdirilir.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, Şəki Mərkəzi Rayon Xəstəxanasında müalicəsi davam edən Xatirə Ağamalıyevanın (sağ baldır sümüyünün çox qəlpəli sınığı, travmatik şok) vəziyyəti ağırdır. Həmin xəstəxanada müalicə alan digər yaralı Elxan Məmmədovun (onurğanın qapalı travması) vəziyyəti isə orta-ağır olaraq qiymətləndirilir.

1 saylı Kliniki Tibbi Mərkəzdə olan İlkin Məmmədovun (ağır dərəcəli kəllə beyin travması, sağ ayaqda sınıq), Sara Hasanın (sağ bud sümüyünün qapalı travması çanaqda), Farik Hasanın (sol incik sümüyünün sınığı), Al Hasan Samirənin (sağ baldır sümüyünün yerdəyişən sınığı) vəziyyətləri ağır stabil olaraq qalır, həyati təhlükələri yoxdur.

Şəki Xan Sarayı ərazisində baş vermiş hadisənin səbəblərinin müəyyənləşdirilməsi məqsədilə Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Turizm Agentliyi və Baş Prokurorluğun məsul şəxsləri Şəki şəhərinə ezam olunublar.

Hadisə ilə əlaqədar Baş Prokurorluğun 492 55 40, FHN-in 112 və Səhiyyə Nazirliyinin 498 78 46 saylı qaynar xətt əlaqə mərkəzləri yaradılıb.

Baş vermiş hadisə və xəsarət alan şəxslərin müalicəsi dövlətimizin başçısının xüsusi nəzarətindədir.

**AZƏRTAC**

### Naftalan Şəhər İcra Hakimiyyəti liftlərin təmir işləri ilə əlaqədar

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**Lot-1. Liftlərin təmiri.**

İştirakçılar öz təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Əlaqələndirici şəxs: Qasımov Səbuhi Nizami oğlu, tel.:02235-2-13-13

İddiaçılar iştirak etmək üçün sənədləri 18 iyul 2019-cu il saat 17:00-dək möhürlənmiş ikiqat zərfdə tender komissiyasına (ünvan: Ş.Qurbanov küçəsi 01 Naftalan Şəhər İcra Hakimiyyəti aparatının inzibati binası) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərf açılmadan geri qaytarılacaqdır.

İddiaçının təklifləri 19 iyul 2019-cu il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçının səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası**

## Bildiriş

"Bakı Metropoliteni" QSC tərəfindən "Respublika" qəzetində 18.05.2019 və 04.06.2019-cu il tarixlərində dərc edilmiş və tender.gov.az saytında yerləşdirilmiş elanlara əsasən 10.07.2019-cu il tarixində keçirilən "N.Nərimanov" elektrik deposu ərazisində 23-24-25-26-27-28-29-30-cu qanovlarda və yeni tikilən Emalatxanalar binasında döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin satınalınmasına dair açıq tenderdə müraciət etmiş iddiaçılar tender təkliflərini təqdim etməyərək tenderə gəlmədiklərindən tender baş tutmamış hesab olunur və davamından imtina edilir.

**"Bakı Metropoliteni" QSC-nin**
**Tender Komissiyası.**

## E l a n

Kənd Təsərrüfatı Nazirliyi "Şəki Regional Aqrokimya Laboratoriyasının təmiri" üzrə kotirovka sorğusu elan edir.

Təkliflər 23 iyul 2019-cu il saat 17:00-dək qəbul olunur və təklif zərfləri 24 iyul 2019-cu il tarixində saat 14:00-a açılacaqdır.

Görüləcək işlərə dair "şərtlər toplusunu" əlaqələndirici şəxsə müraciət etməklə əldə etmək olar.

**Əlaqələndirici şəxs:** Kamil Şirinov,
**Telefon:** 498-08-44 (daxili: 277)
**e-mail:** kamil.shirinov@agro.gov.az
**Ünvan:** Bakı şəhəri, Ü. Hacıbəyov küçəsi 80.

## BİLDİRİŞ

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (Seçenov Universiteti) Bakı filialı kotirovka sorğusu elan edir.

**1)** İT avadanlıqlarının və aksessuarlarının satın alınması

İştirak etmək istəyənlər tələb olunan malların siyahısını aşağıdakı ünvandan ala bilərlər:

**Ünvan:** Bakı şəhəri, Hüseyn Cavid -131

**Əlavə məlumat üçün əlaqə telefonu:** (012)599-08-11

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 22.07.2019-cu il saat 17:00.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" Açıq Səhmdar Cəmiyyəti, netto həcmi 646 lt (5%) olan 15 ədəd dərin dondurucuların kotirovka sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+99412) 599-86-74 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 23.07.2019-cu il saat 18:00 tarixinədək qəbul olunur

**Ünvan:** Bakı şəhəri, Səbail rayonu, Zərifə Əliyeva 41, BEGOC Business Center, 6-cı mərtəbə

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi informasiya və kommunikasiya texnologiyaları məhsullarının, su nasosunun, tozsoranların və soyuducuların satınalınması ilə əlaqədar

TƏKRAR

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tenderin predmeti:**
İnformasiya və kommunikasiya texnologiyaları məhsullarının, su nasosunun, tozsoranların və soyuducuların satınalınması.

**Tenderin səlahiyyətli İddiaçıları:**
Tenderdə "Dövlət satınalınmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən satınalınma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli Qərarına uyğun olaraq iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi iddiaçı kimi iştirak edə bilərlər.

*-iddiaçılar öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı formada təqdim etməlidirlər;*

*-müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar;*

*-iddiaçılar tender üzrə 500 manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 511) ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs: Yusifov Ramil, telefon: (012) 538-62-57).*

**Adı: Dövlət Statistika Komitəsi**
**Hesab N-si: AZ59CTRE00000000000002238401**
**VÖEN: 1300189411**
**Benefisar (alan) bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWİFT BİK: CTREAZ22**
**XHK 2238401(002353)**
**Büdcə təsnifatının kodu 142340**
**Büdcə səviyyəsinin kodu 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə aidiyyəti orqanlar tərəfindən verilmiş arayışlar;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçının ixtisasına dair məlumatlar (analoji işlərin yerinə yetirilməsində təcrübəsini təsdiq edən sifarişçi müəssisə və təşkilatların tövsiyə məktubları və s.);*
*-məhsulların keyfiyyətinə dair zəmanət.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. Xarici dildə tərtib olunmuş sənədlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun müvafiq qaydada rəsmiləşdirildikdən (konsul leqallaşdırılmasından və ya apostilin verilməsindən) sonra Azərbaycan dilində notariat qaydasında təsdiq olunmuş tərcümələri ilə birlikdə təqdim edilməlidir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcək: aşağı qiymət, məhsulların quraşdırılmaya və istismara hazır vəziyyətdə daha qısa müddətə təhvil verilməsi və analoji işlərdə təcrübə.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 2019-cu il avqust ayının 1-i saat 18:00-dək, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2019-cu il avqust ayının 14-ü saat 18:00-dək Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 511) ünvanına (əlaqələndirici şəxs: Yusifov Ramil, telefon: (012) 538-62-57) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 2019-cu il avqust ayının 15-i saat 12:00-da yuxarıda qeyd olunan ünvanda 414-cü otaqda açılacaqdır.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu elmi-tədqiqat işləri üçün materialların satınalınması ilə əlaqədar

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**
AMEA Kataliz və Qeyri-üzvi kimya İnstitutu elmi-tədqiqat işləri üçün materialların satınalınması məqsədilə tender iştirakçılarına təklif edir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib edilmiş əsas şərtlər toplusunu Bakı şəhəri, H.Cavid prospekti 113 ünvanında yerləşən AMEA Kataliz və Qeyri-Üzvi Kimya İnstitutundan (əlaqələndirici şəxs: Mirzəyeva R.Y., telefon: 539-41-59 (daxili 168)) ala bilərlər.

İştirak haqqı:
Lot 1 -100 manat

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**AMEA Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu**
**VÖEN 1300521981**
**H/N AZ33CTRE00000000000004138420**
**DXA - VÖEN 1401555071**
**m\h AZ41NABZ01360100000000003944,**
**kod: 210005,**
**SWİFT BİC CTREAZ22**
**Büdcə səviyyəsinin kodu - 7**
**Büdcə təsnifatı kodu - 142319**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli təklifə, yüksək keyfiyyətə, analoji işlərdə azı 5 il müddətində təcrübəyə malik olmasına, kadr potensialına, maliyyə və texniki imkanlarına.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə formasında yazılı müraciət;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi (ödəniş qəbzi);*
*—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifində iddiaçı predmetini səciyyələndirən bütün parametrləri, o cümlədən işin icrasının texniki cəhətlərini, icra müddətini, dəyərini, hesablaşma formasını, işin icra yerini göstərməlidir.*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayışlar;*
*— iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Forma 1, Forma 2);*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*—iddiaçıların analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 23 avqust 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatı isə möhürlənmiş ikiqat zərfdə 2 sentyabr 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, H.Cavid prospekti 113 ünvanında AMEA Kataliz və Qeyri-Üzvi Kimya İnstitutuna təqdim etməlidirlər.

Zərflər 3 sentyabr 2019-cu il saat 11:00-da açılacaqdır.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Şamaxı Rayon Statistika İdarəsi üçün inzibati binanın tikintisi, Yevlax şəhər, Ağsu və Ağcabədi rayon statistika idarələrinin inzibati binalarının yenidən qurulması və əsaslı təmiri işlərinin satınalınması ilə əlaqədar

TƏKRAR

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 4 lot üzrə keçirilir.**
**Tenderin predmeti:**
**Lot 1.** Şamaxı Rayon Statistika İdarəsi üçün inzibati binanın tikintisi işlərinin satınalınması.
**Lot 2.** Yevlax Şəhər Statistika İdarəsinin inzibati binasının yenidən qurulması və əsaslı təmiri işlərinin satınalınması.
**Lot 3.** Ağsu Rayon Statistika İdarəsinin inzibati binasının yenidən qurulması və əsaslı təmiri işlərinin satınalınması.
**Lot 4.** Ağcabədi Rayon Statistika İdarəsinin inzibati binasının yenidən qurulması və əsaslı təmiri işlərinin satınalınması.

**Tenderin səlahiyyətli İddiaçıları:**
Tenderdə "Dövlət satınalınmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən satınalınma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli Qərarına uyğun olaraq iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi iddiaçı kimi iştirak edə bilərlər.

*-iddiaçılar öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı formada təqdim etməlidirlər;*

*-müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar;*

*-iddiaçılar lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 511) ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs: Yusifov Ramil, telefon: (012) 538-62-57).*

**İştirak haqqı:**
Lot 1 - 500 manat;
Lot 2 - 500 manat;
Lot 3 - 500 manat;
Lot 4 - 500 manat.

**Adı: Dövlət Statistika Komitəsi**
**Hesab №-si: AZ59CTRE00000000000002238401**
**VÖEN: 1300189411**
**Benefisar (alan) bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWİFT BİK: CTREAZ22**
**XHK 2238401(002353)**
**Büdcə təsnifatının kodu 142340**
**Büdcə səviyyəsinin kodu 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar analoji işlərin görülməsində təcrübəyə, peşəkar kadr heyətinə, zəruri maşın-mexanizm və texnikaya malik olmalıdırlar.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
